**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**BƏBİR ŞƏRQİ oğlu QULİYEV**

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRDƏ HƏRBİ AMİLLƏRİN DİNAMİKASI (SOSİAL-FƏLSƏFİ TƏHLİL)

İxtisas: 7207.01 – Sosial fəlsəfə
7301.01 – Hərbi nəzəri elmlər

Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsini
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Tədqiqat işı Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun "Sosial fəlsəfə" şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi** **Azər Xoşbəxt oğlu Mustafayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Fizuli Məhəmməd oğlu Qurbanov**
*fəlsəfə üzrə elmlər doktoru,*

**Rəbiyyət Nurullah qızı Aslanova**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Aida Məmməd qızı Yusifzadə**
*siyasi elmlər üzrə elmlər doktoru, dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Müdafiə « __ » aprel 2018-ci ildə saat «___» Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 01.115 Dissertasiya Şurasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az-1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» aprel 2018-ci il tarixində göndərilmişdir.

**Fəlsəfə İnstitutunun nəzdindəki**
**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **S.A.Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSI

**Tədqiqat mövzusunun aktuallığı.** Müharibə və münaqişələr sosial hadisə kimi dövlət və cəmiyyətlə birlikdə meydana gəlmişdir. Bəşəriyyət tarix boyu müharibələrdən əziyyət çəkmiş, daima sülh arzusunda olmuşdur. Sivilizasiyaların tarixi bir tərəfdən misilsiz zənginliyə malik mədəni və mənəvi irsin, maddi sərvətlərin yaradılması tarixidir. Digər tərəfdən isə, bu quruculuq və yaradıcılıq prosesləri həm də fasiləsiz olaraq davam edən dağıdıcı müharibələrlə müşayiət edilmişdir. Ən acınacaqlısı budur ki, hazırda XXI əsrin ikinci onilliyində də, dünya birliyi münaqişələrin ən qəddar formaları ilə üz-üzə qalmış, beynəlxalq qarşıdurma və qlobal geosiyasi vəziyyətdə gərginlik özünün görünməmiş-pik həddinə çatmışdır.Hərb-texniki inqilab nəticəsində müasir müharibənin aparılma metodları və tətbiq edilən yeni silahlar, bəşəriyyəti bir dəfəlik məhv olma təhdidi ilə qarşı-qarşıya qoymuşdur.

Ən son məlumata görə, "hal-hazırda dünyada 57 hərbi münaqişə davam etməkdədir. Münaqişələrin 5-i dövlətlərarası, 52-si daxili xarakterlidir. Onların 16-sı etnik, 15-i konfessiyalararası, 21-i ideoloji və siyasi, eləcə də, 13-ü separatist-müstəqil dövlət yaratmaq uğrunda aparılır".[1]

Tarix boyu istər imperiyaların və dövlətlərin yaranması və tənəzzülü, istərsə də, sivilizasiyaların formalaşması və süqutu silahlı zorakılıqla müşayiət olunmuşdur. Həm ayrı-ayrılıqda götürülmüş dövlətlərin, həm də bütün bəşər tarixinin faciəli dönüş nöqtələri müharibələrlə bağlı olmuşdur desək, yanılmarıq.

"İnsan cəmiyyətləri və birliklərinin sosial-siyasi xarakterindən, insanların maddi və mənəvi tələblərindən, ehtiyaclarının ödənməsi zərurətindən asılı olaraq onlar arasında müxtəlif xarakterli münasibətlər cərəyan etmiş, müharibələr, qanlı döyüşlər yaşanmış, iri dövlətlər, imperiyalar qurulmuş, sonra da iflasa uğramışlar".[2]

Ötən XX əsrdə iki dünya müharibəsi baş vermiş, milyonlarla insanın taleyi qan gölünə qərq olmuşdur. Həmin əsrdə Azərbaycan Respublikasının tarixi torpaqları olan Dağlıq Qarabağ ərazisi dəfələrlə işğala məruz qalmışdır. Əsrin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan dövləti, bununla eyni vaxtda Ermənistan Respublikası tərəfindən təcavüzkar müharibəyə məruz qalmış, torpaqlarımızın 20 faizi işğal edilmişdir.

---

[1] http://ru.valdaiclub.com/multimedia/infographics/vooruzhennye-konflikty-v-mire/

[2] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005. 631 s.- səh.27-8

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev ümumilikdə müharibə fenomenini, eləcə də, Azərbaycanın müstəqilliyin bərpası ilə eyni vaxtda üzləşdiyi bu münaqişəni səciyyələndirərkən qeyd etmişdir: "Bir ölkənin başqa bir ölkənin zəbt etməsi üçün əsrlər boyu nə qədər müharibələr gedib. Ancaq bunlar heç vaxt yaxşı nəticə verməyib. Ermənistan ilə Azərbaycan arasında gedən müharibəni Azərbaycan başlamayıb. Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək üçün bu müharibəni Ermənistan başlayıb. Bu illərdə nə qədər qan tökülüb, nə qədər insanlar həlak olub. Ölkələr arasında olan iqtisadi, insani əlaqələr pozulub. Ermənistan ağır iqtisadi blokada şəraitindədir. Ermənistanda və ondan kənarda yaşayan, Ermənistana tərəfdar olan adamlardan heç kəs düşünməsin ki, silah işlətmək yolu ilə Azərbaycanın ərazisini qoparıb ələ keçirmək olar."[1]

2001-ci il 11 sentyabr tarixində beynəlxalq terrorizmin ən dəhşətli hadisələrindən birinin baş verməsi, həm də müharibə bə qarşıdurmaların yeni müstəviyə keçməsindən xəbər verdi. Müharibələrin yaranmasının tarix boyu mövcud olan hərbi, iqtisadi, siyasi, dini, etnik-milli və. s səbəbləri sırasında yeni amillər xüsusilə qabardıldı, "sivilizasiyalararası toqquşma" nəzəriyyəsi geniş yayıldı.Yeni XXI əsrin başlaması ilə paralelolaraq, yeni qlobal miqyas və intensivliklə baş qaldıran geosiyasi toqquşmalar, Sovetlər imperiyasının çökməsindən sonra postsovet məkanında ilk dəfə həyata keçirilən hərbi müdaxilə, aşkar işğal faktları-2008-ci ilin Gürcüstan müharibəsi, Ukrayna hadisələri və Krımın Rusiyaya birləşdirilməsi, Yaxın Şərqi, Suriyanı cəhənnəmə çevirən qanlı münaqişələr yaşadığımız dövrün tamamilə yeni hərbi reallığının formalaşmasından xəbər verdi.

Son dövrlərin, hətta son ayların hadisələrinə, Suriyada, Hələbdə, İraqda Mosulda və s. gedən döyüşlərdə ABŞ-ın başçılıq etdiyi, koalisiya adlanan tərəflərin fəaliyyəti, həmçinin Rusiyanın bölgədə həyata keçirdiyi əməliyyatlar, dinc əhalinin məhv olmasını dünya birliyi bir susqunluqla müşahidə edir. Dinc əhalinin xilas edilməsi yönündə beynəlxalq təşkilatlar heç bir plana malik deyil.

Yaşanan faciələrdən bəhs edilərkən qeyd edilir: "XXI əsrin qlobal lider hesab edilən dövlətləri tərəfindən keçirilən sözdə antiterror əməliyyatı adlanan əməliyyatlar, reallıqda Orta əsrlər döneminin qırğınına çevrilmişdir. Burada ilk olaraq ən çox əzab çəkən mülki əhalidir. Dinc sakinləri həm terrorçular, həm də onlara qarşı duran qüvvələr tərəfindən məhv edilirlər. Üstəlik də, koalisiya

[1] Heydər Əliyev. Fransanın "Mond diplomatik" qəzetinin müxbirinə müsahibəsi. Fransa. Paris, 3 dekabr 1995-ci il//http://lib.aliyev-heritage.org/az/5846263.html

adlanan tərəfin mülki şəxslərin qurtuluşu üçün heç bir planı yoxdur. Nə də humanitar dəhliz, nə əhalinin təxliyəsində sistemli təşkilatçılıq fəaliyyəti mövcud deyildir.”[1]

İstisna kimi vurğulanmalıdır ki, yalnız son dövrdə Suriyanın şimal-şərq hissəsinin əksər ərazisinə nəzarət edən silahlıların terrorçu əməllərinə qarşı qardaş Türkiyə dövlətinin Afrində 19 yanvar 2018-ci il tarixindən həyata keçirdiyi “Zeytun budağı” anti-terror əməliyyatlar böyük uğur və dəstək qazanmaqdadır. [2]Afrin əməliyyatı məlum olduğu kimi, mahiyyət etibarilə hücum yox, müdafiədir. NATO tərəfindən Türkiyənin özünümüdafiə haqqı olmasına dair bəyanat verilməsi də buna dələlət edir.

Bütövlükdə, son bir neçə onillikdə qlobal miqyasda baş verən geosiyasi dəyişikliklərin, hərbi münaqişələrinin təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, sosial fenomen kimi müharibənin aparılmasının forma və metodları dəyişsə də, əsas mahiyyəti dəyişməmişdir. Onun mövcudluğunu tarix boyu olduğu kimi zorakılıq təmin və təşkil edir.

Bu gün Azərbaycan dünyanın ən uzunmüddətli sayılan münaqişəsi ilə üz-üzə, müharibə vəziyyətindədir. Prezident, Ali Baş Komandan İlham Əliyev 2015-ci ilin iyun ayında, Hərbi Dəniz Qüvvələrinin yeni bazasının açılışı zamanı çıxışında qeyd etmişdir: “Bu gün dünyanın bütün bölgələrində qanlı toqquşmalar, münaqişələr, vətəndaş müharibələri hökm sürür. Azərbaycanın da ən böyük problemi-torpaqlarımızın işğal altında qalması, uzun illər bu ədalətsizliyin davam etməsidir”.[3]

Yuxarıda qeyd edilən, müasir dövrdə münaqişələrin daha da artması meyllərinin müşahidəsi nəticəsində, müvafiq olaraq da, məntiqi sual yaranır: indiyə qədər ictimai elm, fəlsəfə müharibə fenomeni, onun dərk edilməsi və aradan qaldırılması yönündə nə edə bilmişdir və daha nələr edə bilər? Bu suala tanınmış fransız alimi və filosofunun cavabı ilə nəzər salsaq, tamamilə mənfi və bədbin cavab almış olarıq. Belə ki, qeyd edilən sual alimin fikrinə görə, fərqli şəkildə bu cür səslənməlidir: müasir elm özünün malik olduğu və mahiyyətini təşkil edən təməl fəlsəfi prinsiplərindən tamamilə uzaq düşmüş, artıq ictimai elmdən çox "texnoelmə" çevrilməkdədir. Yəni elmi axtarışların yalnız tətbiqi fayda və səmərə gətirən yönə istiqamət alması,ictimai elmləri arxa plana keçirmiş, həqiqət yolundan sapındırmışdır. Ən pisi odur ki, bu, bir-iki dini və ekoloji sahə liderlərindən başqa heç kəsi narahat etmir. Hesab edilir

---

1 https://ria.ru/world/20161106/1480754894.html.

2 R.T.Erdogan: Operation in Syria's Afrin has begun//https://www.aljazeera.com/news/2018/01/erdogan-operation-syria-afrin-begun-180120120424928.html

3 president.az/mobile/articles/20487

ki, elmin əsasını "eksperiment" təşkil etməli, onun maddi faydası olmalıdır. Bu isə idrakın mahiyyətini təşkil edən nəzəri elmlərə, düşüncə və təfəkkürə artıq faydasız bir şey kimi məhəl qoyulmamasını normaya çevirmişdir.”[1]

Müasir müharibənin məzmunu və forması köklü şəkildə dəyişikliyə uğramışdır. Müasir müharibənin məqsədləri və hədəflərinə bu gün yalnız silah tətbiqi vasitəsi ilə deyil, digər, zahirən qeyri-zoraki görünən vasitələrlə nail olmaq mümkündür.

Müharibə mahiyyətcə həmişə sosial xarakter daşısa da, müasir müharibə xüsusilə başqa dövlətə və cəmiyyətə qarşı fasiləsiz, davamlı şəkildə, istənilən qeyri-hərbi vasitələrlə, birbaşa silah tətbiq edilmədən aparılan sosial prosesə çevrilmişdirİnsanlar məhv olur, dövlətlər süquta uğrayır, xalqlar yer üzündən silinir. Xüsusilə vurğulanmalıdır ki, məhz müasir müharibənin sadalanan forma və təhdidlərindən xəbərdar olmayan cəmiyyətlər və dövlətlər ən çox təhlükəyə məruz qalırlar, qeyri-sabitliyə qərq olurlar. Müharibə və onun təhdidlərinə dair cəmiyyətdə dünyagörüş və təsəvvürlər yetərincə formalaşmır.

Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Hərbi doktrinası” Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir. Hərbi Doktrinanı 5-ci “V. Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin hərbi-strateji əsasları” adlanan bəndində yeni reallıq barədə qeyd edilmişdir: “41.Qlobal inkişafın müasir mərhələsi münaqişələrin xarakterini əsaslı surətdə dəyişdirən - geoməkanın genişliyi, mürəkkəbliyi, qeyri-sabit dinamikası, informasiya amilinin və texnoloji inkişafın durmadan artan əhəmiyyəti; ən yeni silahlı mübarizə vasitələrinin meydana gəlməsi, vahid informasiya məkanının formalaşması və s. meyllərin mövcudluğu ilə xarakterizə olunur.”[2]

Bütövlükdə, mövzunun aktuallığını şərtləndirən, qlobal hərbi-siyasi proseslərdən irəli gələn, cəmiyyəti mövcud çağırışlara cavabının zəruri edən amillərin mövcud spektrini aşağıdakı kimi səciyyələndirmək olar:

---

[1] Paul Virilio. The Information Bomb.Translated by Chris Turner. Verso.London -New York. 2006.160 p.-p.5.

[2] Azərbaycan Respublikasının Hərbi Doktrinası//http:// www.mod.gov.az/doktrina.htm

- XXI əsrdə əvvəlkindən tamamilə fərqli olan yeni hərbi reallığın formalaşması müharibə və münaqişələr, onların yeni mahiyyəti, məzmun və forması haqda dərin tədqiqatların aparılmasını gündəmə gətirmişdir;
- Yeni əsrin ötən yüzillikdə baş verən müharibələrdən tamamilə fərqlənən, hərbi əməliyyatların aparılmasının forma, məzmun və mahiyyətcə dəyişikliyə uğrayan postmodern adlanan müharibə fenomeninin elmi izahı sosial-fəlsəfi araşdırmaların gündəmində duran taleyüklü məsələlərdəndir
- Cəmiyyətdə müharibələrə son qoyulması üçün fəlsəfi dünyagörüş, sivilizasiyalararası dialoq mühiti, ideoloji və sosial təsəvvürlər bir-biri ilə sıx əlaqədə olub, qərar qəbulunda və fəaliyyət motivində əsas yer tutur.
- Qloballaşma mərhələsinin sürətlə getdiyi hazırkı vaxtda müxtəlif cəmiyyətlər arasında ümumbəşəri təfəkkürün, sivilizasiyalararası dialoqun, təhlükəsizliyin bölünməzliyi fəlsəfəsinə əsaslanan dünyagörüş və mədəniyyətin formalaşması gündəmdədir;
- Müasir müstəqil dövlətin beynəlxalq münasibətlər sistemində statusu, onun dünyada nüfuzu və yeri, eləcə də, milli inkişaf strategiyasının həlledici amili dövlətin ilk növbədə həm də hərbi-siyasi proseslər sahəsində nail olduğu uğurlardan, hərbi gücü və potensialından asılıdır.
- Məhz bu amil hərb amilinin təsir və nüfuz gücünün çoxalmasını obyektiv əsaslar yaradaraq, onun mövcud olan bir sıra təhdidlərin: beynəlxalq terrorizmlə mübarizə, mütəşəkkil cinayətkarlıq, narkotik ticarət, informasiya müharibəsi, kiberquldurluq və s. -və təhlükələrin dəf edilməsinin səmərəli vasitəsi kimi alternativsiz əhəmiyyətini daha da artmışdır;
- Bundan əlavə, müasir hərbi texnika sahəsində baş verən inqilab və silahlanma-yeni raketlərin təsir radiusunun artması, döyüş vasitələrinin aviasiya və dəniz sistemləri ilə çatdırılma sistemlərinin inkişafı, silahların dağıdıcı gücünün dəfələrlə artması və onların qəfil tətbiqi imkanları bu sahədə qabaqcıl texnologiyalara malik olan dövlətlərə üstünlük yaratmaqla yanaşı, bunun əksi olan dövlətlərdə əhalinin böyük risk və təhlükə altında qalmasına, elmi araşdırmaların aparılmasına və müvafiq olaraq cəmiyyətdə maariflənmə tədbirlərinin keçirilməsinə zərurət yaradır.
- Azərbaycan xalqının artıq otuz ilə yaxındır ki, müharibə və həll edilməmiş münaqişə şəraitində yaşayır.
- Ermənistan, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövlətlərarası münasibətlər aspektində təhlil olduqca maraqlı məqamları üzə çıxarır. Belə ki, bu müharibəyə müxtəlif ölkələrin müxtəlif, haqlı və haqsız münasibəti göz önündə olduğu qədər də dissertasiya mövzusunun nə qədər aktual olduğuna bir daha dəlalət edir.

- Dövlətimiz və müstəqilliyimiz üçün taleyüklü sayılan milli hərbi quruculuğun mərhələləri, ona maneə olan amil və qüvvələrin təsiri çoxəsrlik hərbi rəşadət tarixinə malik olan Azərbaycanın hərbi gücünün, bütövlükdə milli gücün həlledici tərkib hissəsi kimi, bu istiqamətdə ölkədə həyata keçirilən fəaliyyətin sosial-fəlsəfi, ideoloji-dünyagörüş və s. aspektləri öz təhlilini tələb edir.
- Müstəqilliyin əldə olunmasından sonrakı dövrdə, dövlətin hərbi siyasəti və milli ordu quruculuğu məsələlərinin tədqiqi, bu sahədə ümummilli lider Heydər Əliyevin fəaliyyəti, onun geniş dünyagörüşə, hərtərəfli təsəvvürlərə, elmi düşüncəyə və vətənpərvərliyə malik milli hərbi kadrların yetişdirilməsi işinin həm də dərin fəlsəfi əsaslara söykənməsinin vacibliyinə dair fikri əsas götürülərək, yeni reallıqda sosial-fəlsəfi prizmadan tədqiq edilməlidir.

**Problemin işlənmə dərəcəsi.** Müharibələr və münaqişələr, onların müasir dövrdə xüsusiyyətlərinə dair ayrı-ayrılıqda çoxsaylı tədqiqatların mövcud olmasına baxmayaraq, “Dövlətlərarası münasibətlərdə hərbi amillərin dinamikasının sosial-fəlsəfi təhlili” mövzusunda əksini tapan məqamların qarşılıqlı təsiri və bağlılığında təhlilinə dair tədqiqatlara rast gəlmək çətindir.

Müharibə və münaqişələrin yaranması, mahiyyəti bir çox ictimai və texniki elmlər tərəfindən araşdırılır. Burada həm yerli, həm də xarici tədqiqatçıların tarix, politologiya, psixologiya, fəlsəfə, hərbi elm və s. sahələrin təmsilçilərinin əsərlərini qeyd etmək olar. Müharibə fenomenini ümumilikdə “xeyir-şər” problemi aspektində tədqiq edən ilk elm sahəsi fəlsəfə olmuşdur. Tarixi hərbi əməliyyatların, müharibə və münaqişələri əks etdirən çoxsaylı elmi-nəzəri mənbələr mövcuddur.

Tədqiqatın nəzəri mənbələri qismində təbii olaraq ilk sırada Azərbaycan Respublikasının milli və hərbi təhlükəsizliyinin təminatı sahəsində rəsmi sənədlər, Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsindəki "Azərbaycan. Qarabağ" səhifəsi, müvafiq Qanun, konsepsiya və doktrina xarakterli hüquqi-normativ aktlar, strategiya və s. məzmunlu materialları təşkil edir.[1]

---

[1] Hərbi vəziyyət haqqında Azərbaycan Respublikasının Qanunu. 16 dekabr, 2016-cı il.// http://www.president. az/articles/ ;“Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu// http://www.president. az/articles/7158; «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası». 23 may 2007-ci il.// migration.gov.az/.//Azərbaycan Respublikasının Hərbi Doktrinası//http:// www.mod. gov.az /doktrina.htm; Sülh və təhlükəsizlik naminə: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri, 22- 27 aprel 1999-cu il /Azərbaycan Respublikası Prezidentinin katibliyi.- B., 2000.- 231 s.; İlham Əliyev. İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin tək-

Müharibəyə dair elmi mənbələr sisteminin bir neçə əsas istiqamətlər üzrə təsnifləşdirmək olar. Birinci istiqamətə xarici və yerli mütəfəkkirlərin-filosoflar, politoloqlar, sosioloqlar, tarixçilər, iqtisadçılar, analitiklərin ümumilikdə müharibələr, onun tarixi və mahiyyətinə dair tədqiqatları aiddir. Müharibə mövzusundan bəhs edərkən ilk olaraq yada düşən, ən qədim elmi-nəzəri, tarixi abidə kimi dəyərləndirilən yunan tarixçisi və filosofu Fikididin "Peloponnes müharibəsi" əsəri qeyd edilir. [1] Görkəmli filosofların əsərlərdə müharibənin mahiyyəti və formalaşması ilə bağlı elmi-nəzəri baxışlar, cəmiyyətin və dövlətin, siyasi proseslərin və hadisələrin spesifik vəziyyəti kimi izah edilir. Həmin məsələlərin təhlili bir sıra mütəfəkkirlərin: Platon, Aristotel, Sun-Tszı, Siseron, Avqustin Avreliy, Q. Qrotsi, T. Hobbsa, N. Makiavelli, Ş. Monteskyö, İ. Kant, İ. Fixte, Q. Hegel, K. E. Rotterdamskiy və başqalarının əsərlərində əksini tapmışdır.[2] Göstərilən müəlliflərin əsərlərində müharibə haqqında elmi nəzəriyyələrin əsasları qoyulmuş, eləcə də, bu günə qədər öz əhəmiyyətini itirməyən məsələlər və problemlər dairəsi müəyyən edilmişdir.

Xarici müəlliflərin əsərləri də müxtəlif elmlərarası sahələri əks etdirməklə bir qismi müharibənin klassik problemlərini təhlil edən tədqiqatlarla səciyyələnir.[3]Müharibələrə dair nəzəriyyənin Yeni dövrdən üzü bəri ən çox tanınmış nümayəndəsi K. fon Klauzevits (1780-1831) hesab edilir.[4] Digər

---

milləşdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 26 sentyabr 2012-ci il http://president.az/articles/6298 və s.

[1] Thucydides. The Peloponnesian War. London, J. M. Dent; New York, E. P. Dutton. 1910.

[2] Августин Блаженный. О граде Божием: в 4 т. -М., 1994; Аристотель. Сочинения: в 4 т. - Т.З. Политика. - М., 1983; Гегель Г. Философия права. - М, 1990; Гоббс Т. Левиафан или материя, форма и власть государства церковного и гражданского. -М., 1936; Жизнь и труды Клаузевица / Авт. и рук. проекта И.Даниленко / Под ред. О. Гусевой. - М.: ВА ГШ, 2001; Макиавелли Н. Государь. Рассуждения о первой декаде Тита Ливия. О военном искусстве: сборник. - М., 2005; Сунь-цзы. Трактат о военном искусстве. - М.: Воениздат, 1955.

[3] Кревельд М. Трансформация войны. - М: Альпина Бизнес Букс, 2005: Тоффлер Э. Война и антивойна. Что такое война и как с ней бороться. Как выжить на пороге XXI века. - М.: АСТ: Транзиткнига, 2005; Фукуяма Ф. Конец истории и последний человек: пер. с англ. М.: Изд-во «Аст», 2007; Его же. Наше постчеловеческое будущее: пер, с англ. - М.: Изд-во «АСТ», 2008; Хантингтон С. Столкновение цивилизаций. - М.: АСТ, 2003; Шарп Дж. От диктатуры к демократии. Стратегия и тактика освобождения /пер. с англ. Н.Козловской. - М.: Новое изд-во, 2005 и др. Арон Р. Война и мир между народами : М. : NOTA BENE , 2000. 417с.; Хантингтон С. Столкновение цивилизаций М.: ООО «Издательство АСТ», 2003;Харботл Т. Битвы мировой истории. Словарь. М.: Внешсигма, 1993.— 576 с.

[4] Клаузевиц К. О войне: в 2 т. - М.: Государственное военное издательство, 1936;

qisim tədqiqatlar müasir müharibə fenomeni onun transformasiyaya uğraması təhlil edilir.[1]

Rusiyalı müəlliflərin müharibə və cəmiyyət, hərb siyasəti, müharibə və sülh, eləcə də etik məsələlərə dair çoxsaylı tədqiqatları mövcuddur. Bunlara misal olaraq, M. Gareyev, Y.Deryugin, N.Zvichukov, V. Zolotarev, A.Kokoshin, A.Proxojev,V. Serebryannikov, S. Tyuşkeviç, R. Janowski, A. Hüseynov, V.Kantor, E.Pozdnyakov, A.A.Skvortsov və digərlərinin əsərlərini göstərmək olar.[2]

Müharibə və münaqişələrə dair fəlsəfi-nəzəri fikir bir çox yerli alimlərin əsərlərində əksini tapmışdır. Azərbaycanlı müəlliflərin bir sıra dərsliklərində müharibənin fəlsəfi problemləri ilə bağlı mövzulara yer verilmişdir. Akademik Ramiz Mehdiyev, professor Azər Mustafayevin fəlsəfə dərsliklərində və əsərlərində münaqişə və müharibələrə dair problemlər əksini tapmışdır.[3] Mövzunun işlənmə dərəcəsini izləyərkən görürük ki, münaqişələrin həllinin sosial-fəlsəfi və sivilizasion aspektlərinin tədqiqi akademik Ramiz Mehdiyevin

---

[1] Arreguín-Toft I. How the Weak Win Wars. A Theory of Asymmetric Confict. İn: International Security, Vol. 26, No. 1 (Summer 2001), pp. 93; Deepa Kumar.Media, War, and Propaganda: Strategiesof Information Management During the2003 Iraq War. 2006. //http:// www. Tandfonline .com/doi/pdf/ 10.1080/14791420500505650.Dempsy.; John Arquilla, David Ronfeldt (editors). Networks and Netwars: The Future of Terror, Crime, and Militancy. 2001.375 pNumber of conflicts worldwide from 2005 to 2015, by conflict intensity//http://www. statista.com/statistics/262935/conflicts-worldwide-by-intensity/of-power.aspx (дата обращения: 04.07.2014);.Secrets of the Four-Day Karabakh War//http://nationalinterest.org/blog /secrets-the-four-day-karabakh-war-15772.

[2] Головин Н.Н. Наука о войне. О социологическом изучении войны. - Париж, 1938; Kiado Н.Л. Стратегия. Введение. -Пг., 1918. (библиотека «Морского сборника» №5); Его же. Стратегия. Кн. 1.0 насилии: рукопись из личного архива; Леер Г.А. Стратегия. (Тактика театра военных действий). - изд. 5-е, испр. и доп.: в 3 ч. - СПб.: Тип. С. Н. Худякова, 1893. Ч. 1.; Све-чин А.А. Стратегия. - М.: Военный вестник, 1927; Его же. Стратегия в трудах военных классиков. -Т. 1. -М: Высш. Воен. Ред. Совет,1924; Его же. Стратегия XX века на первом этапе. Планирование войны и операций на суше и на море в 1904-1905 гг. / Авт. и рук. проекта И. Да-ниленко. -М: ВАГШ, 1995; Снесарев А.Е. Философия войны /под ред. О. Гусевой. -М: ВА ГШ ВС РФ, 2002Бельков О.А Понятие «война» и его аберрации в отечественном дискурсе // Власть. - 2009. - Сентябрь; Гареев М.А. Полководцы Победы и их военное наследие: очерки о военном искусстве полководцев, завершивцүгх Великую Отечественную войну. - М.; «Инсан», 2003;

[3] Mehdiyev R. "Fəlsəfə".Ali məktəblər üçün dərslik. Bakı, "Şərq-Qərb",2010.360 s.; Azər Mustafayev. Fəlsəfədə ziddiyyətlər və münaqişələr problemi (dərs vəsaiti). Bakı: 2000.110 s.Ağayar Şükürov."Fəlsəfə".II nəşr. Bakı, 2011.471s;

son dövrdə işıq üzü görmüş "İkili standartların dünya nizamı və müasir Azərbaycan " adlı əsərində dərin əksini tapmışdır. [1]

Müharibələrin politoloji aspektinə professorlar, Ağalar Abbasbəyli və Hikmət Babaoğlunun dünya siyasəti və beynəlxalq münasibətlərə dair dərsliklərində-münaqişələr və onların həlli yolları, silahlı toqquşma hüququ, beynəlxalq münaqişələrin məhkəmə yolu ilə həlli, güc tətbiqetmə, müharibəyə gətirməyən məcburetmələr, beynəlxalq terrorizm, terrorizmin ümumi xarateristikası, müasir terrorizmin xüsusiyyətləri və s. məsələlərdən ətraflı bəhs edilmişdir.[2]

Azərbaycanlı müəlliflər konfliktologiya və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi aspektində problemin müxtəlif aspektlərini elmi ədəbiyyatda təhlil etmişlər. [3]

---

[1] Mehdiyev R. Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti. Dünya nizamından “nizamsızlığa” doğru”.Bakı, Bakı, “Şərq-Qərb” nəşriyyat evi. 2015-ci il.96 s.

[2] H.Babaoğlu. “Dünya siyasəti və beynəlxalq münasibətlər” (Dərslik), Bakı, “Çinar-Çap”, 2010. – 568 səh. Abbasbəyli A.N., Yusifzadə S. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı, NPM. Təhsil, 2009, 310 s.

[3] "Azərbaycan Respublikası 1991-2001".Müəlliflər: Abdullazadə Fatma, Ələsgərov Fuad, Əlirzayev Əli, Əsədov Əli, Həsənov Əli, Xəlilov Səlahəddin, Qafarov Tahir, Mahmudov Yaqub, Rəhimov Mayıl. Redaktor R.Mehdiyev. Azərbaycan Respublikası 1991-2001. - B. XXI-Yeni Nəşrlər Evi, 2001. - 280 s. ; Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Bakı: BDU, 2006,286 s.; E.Nəsirov. Bir səhv addım bəşəriyyəti qlobal müharibəyə sürükləyə bilər.// https://sputnik.az/expert/20160102/403231033.html; E.Nəsirov. Beynəlxalq terrorizm və İslam: Əks qütblər// http://publika.az/p/10008;Tağıyev Ə.M., Şükürov M.A. “Dağlıq Qarabağ probleminin ideoloji aspektləri” AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun elmi məqalələr toplusu. 2002, 181 s.; Abdullayev Ə. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq: Monoqrafiya /Elmi red.: F.e.d., prof. M.F.Cəlilov.- B.: İqtisad Universiteti, 2004.- 214 s.Acı həqiqətlər: (Qarabağ hadisələrinə dair məqalələr). B., 1991.Əsədov, E. Qloballaşmanın müasir mərhələsində müharibə və sülh probleminin politoloji təhlili : siyasi elmlər üzrə fəlsəfə dok. ... dis. avtoreferatı/elmi rəh. N. İ. Ələkbərova ; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. - Bakı, 2011. - 25 s.Hacızadə Ə. İnformasiya müharibəsi və biz. http://hajizade. org/informasiya-muharib.Həbibbəyli Ə. Su diplomatiyası.// http://525.az/site/? name=xeber & news_id=6249.Həsənov Ə. Heydər Əliyevin geosiyasi təlimi: XXI əsrdə Azərbaycanın əsas geosiyasi vəzifələri və perspektivləri. “Azərbaycan”.-2011.-1 may.- N 93.-S.2-3.Hüseynova S. Tarixi inkişaf, din və müharibə amillərinin qarşılıqlı təsir dinamikası: fəlsəfə üzrə fəlsəfə dok. dis. Avtoreferatı.AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. - Bakı, 2011. - 22 s. ;Piriyev H. Heydər Əliyev və Azərbaycanda hərbi təhsil sistemi / H. Piriyev // Milli təhlükəsizlik və hərbi elmlər.- 2016.- № 2.- S. 5-11 Piriyev H., Həşimov E.Talıbov Ə. Xüsusi təyinatlı ali təhsil müəssisələri üçün pedaqoji kadr hazırlığının bəzi məsələləri. //"Hərbi bilik jurnalı,2014-cü il, №2, iyul-avqust, səh.3-10.;Rüstəmov İ. Heydər Əliyev - Azərbaycan ordusunun qurucusudur. “Respublika“.-2009.-12 dekabr.-N 270.-S.7.

Müharibənin sosial fenomen kimi fəlsəfi aspektləri də ölkəmizdə az sayda olsa da müəyyən qədər tədqiq edilmişdir.[1] Bundan əlavə digər yerli müəlliflərin əsərlərində də müharibə, təhlükəsizlik və sülh problemləri fəlsəfi, tarixi və politoloji aspektlərdə öz tədqiqini tapmışdır.[2]

Rusiyalı müəlliflərin müasir müharibənin xüsusiyyətləri və hərbi əməliyyatların aparılmasına dair tədqiqatları da geniş bir sahəni əks etdirir.[3]

Dissertasiya mövzusunun araşdırılması ilə bağlı Qərb, Rusiya və yerli tədqiqatçılarının ərsəyə gətirdiyi monoqrafiya və elmi məqalələrin nəzərdən keçirilməsi bir daha onu göstərir ki, "Dövlətlərarası münasibətlərdə hərbi amillərin dinamikasının sosial-fəlsəfi təhlili" mövzusu tədqiqat işi kimi bu günə qədər ayrıca təhlil predmeti kimi işlənilməmişdir. Adı çəkilən əsərlərdə müəlliflərin əksəriyyəti müharibə və münaqişələri ayrı-ayrılıqda öyrənmiş, onların qarşılıqlı bağlılıqda sosial-fəlsəfi mahiyyəti, təsiri və nəticələrinə dair

---

[1] Quliyev B. Müharibə və ekologiya. Monoqrafiya. Bakı, 2001-ci il. 125 s; Quliyev B. Müharibə haqqında sosia-fəlsəfi nəzəriyyələr tarixindən / B. Quliyev // Hərbi bilik. - 2007. - № 3. - S. 94-108; Quliyev, B. İnformasiya sivilizasiyası və hərbi-siyasi qarşıdurmalar məkanının transformasiyası: əsas meyillər və perspektivlər / B. Quliyev // Strateji təhlil. - 2014. - № 3(10). - S. 21-36 . Quliyev B. Müasir müharibə: mahiyyəti, konsepsiyaları və postmodern mərhələdə xüsusiyyətləri. (Monoqrafiya).– Bakı, Hərbi Nəşriyyat, 2016-cı il. – 400 səhifə.

[2] Məmmədzadə İ. Milli məkan və informasiya təhlükəsizliyinə təhdidlər: bəzi humanitar aspektlər//Strateji Təhlil. Analitik jurnal. Say 3 (10). 2014.səh.9-21; Əsədov E. Qloballaşmanın müasir mərhələsində müharibə və sülh probleminin politoloji təhlili... dis. avtoreferatı: elmi rəh. Nigar Ələkbərova ; Bakı, 2011. - 25 s; Etibar Əsədov müharibə problemi sosial-siyasi tədqiqatin obyekti kimi// Elmi Əsərlər.AMEA Fəlsəfə İnstitutunun beynəlxalq elmi-nəzəri jurnalı. № 2 (15).s.79-85; Əsədov E.Müharibə və sülh problemi siyasi realizm və siyasi idealizm arasında ziddiyyətlərin kəsişmə nöqtəsi kimi// Elmi əsərlər: AMEA Fəlsəfə, Sosiologiya və Hüquq institutu. - 2013. - № 1(20). - S.107-112.; E.Mirbəşiroğlu. Siyasi münaqişələr : mahiyyəti, quruluşu, həlli: monoqrafiya.elmi red. H. B. Məmmədov. Bakı : Elm, 2009. - 524 s; E.Abdullayev "XXI əsr – Qərb və Şərqin hərbi-siyasi sistemlərinin inkişafında yeni mərhələ"// http://newtimes.az/az/politics/3021/

[3] Бельков О.А. Война: инвариантная сущность и множество ее интерпретаций // Проблемы безопасности: бюллетень НИЦ «Наука-ХХ1». -2009. -№ 5; Курочко М.М. Неклассические войны современной эпохи: к постановке проблемы//Проблемы безопасности: неклассические войны современности. Бюллетень научно-исследовательского центра «Наука - XXI», № 3, 2008. - С. 3 - 25; Круглое В.В. Новый подход к анализу современного противоборства // Военная мысль. - 2006. - № 12; Печуров С.Л. Принципы войны в трактовке современной военной науки Запада //Военная мысль. - 2006. - № 1; Горбачев Ю.Е. Сетецентрическая война: миф или реальность? //Военная мысль,- 2006. -№ 1,- С.76; Чельцов Б.Ф., Волков С. Сетевые войны XXI века //ВКО. - 2008; Васильев Н.М. О кризисе военной науки и путях выхода из него // Военная мысль. 2013. № 3. С. 39-46.

mənbələr yox dərəcəsindədir. Bu da öz növbəsində bu gün dünyanı təhdid edən yeni nəsil müharibələr və onların fəlsəfi mahiyyətinin aşkar edilməsi üçün elmi əsaslandırılmış qənaətlərin olmadığı üçün çətinlik yaradır, münaqişələrin həllinin uzadılmasında" ikili standartlar" siyasətinin ifşa edilməsinə mane olur.

**Tədqiqatın obyektini** cəmiyyət həyatında müharibənin, onun ənənəvi və müasir formalarının sosial fəlsəfi təhlili təşkil edir.

**Tədqiqatın predmetini** isə hərbi amillərin dinamikasının dövlətlərarası münasibətlərdə çoxşaxəli təzahürlərinin qarşılıqlı bağlılıqda təhlili təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Araşdırmanın başlıca məqsədi müasir dövrdə cəmiyyətdə baş verən, dövlətlərarası münasibətlər sisteminin xarakterini və yeni meyllərini müəyyən edən kəskin məsələ kimi müharibə və münaqişələr, onların yaratdığı böhranın və onun xüsusiyyətlərinin təhlili, yenicə müstəqillik əldə edən Azərbaycan Respublikasının üzləşdiyi işğalçı və təcavüzkar müharibənin tədqiqi, yaranmış vəziyyətdən çıxış yollarının kompleks təhlili təşkil edir.

Qeyd olunan məqsədə nail olmaq üçün müəllif tərəfindən tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

Müharibələrin mahiyyətinə dair sosial-fəlsəfi baxış və nəzəriyyələrin tarixinə ekskurs; Müharibə, onun genezisi və mahiyyətinin fəlsəfi təhlili; Sosial fenomen kimi müharibənin səciyyələndirilməsi;

Tarixi inkişaf və hərbi amillərin qarşılıqlı dinamikası;Qloballaşma dövründə hərbi amillər: metodoloji, nəzəri, texnoloji aspektlər;Müasir mərhələdə münaqişə və müharibələrin xarakter və məqsədində baş verən dəyişikliklər, əsas meyllər;Müharibələrin yeni və ənənəvi növləri və sosial nəticələri;

İnformasiya müharibələri və texnologiyaları. Hərbi münaqişələrin yeni metodları kimi; Beynəlxalq terrorizm fenomeni və müharibə amili;Çoxqütblü dünya düzəni, müharibələrin müasir təhlili və nizamlanması məsələləri; XX əsrdə Azərbaycanda hərbi quruculuğun sosial - fəlsəfi təhlili;Milli ordu və hərbi siyasət sahəsində Ümummilli lider Heydər Əliyev fəaliyyəti; Beynəlxalq hərbi təşkilatlarla əməkdaşlıq və inteqrasiyanın konseptual əsasları.

**Tədqiqatın nəzəri-metodoloji** əsasını ilk növbədə Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin problemlə bağlı irəli sürdüyü proqram xarakterli çıxışlar, konseptual müddəalar, həmçinin, bu sahədə rəsmi dövlət sənədləri, eləcə də, sosial-fəlsəfi təhlilin ümumelmi prinsipləri, Azərbaycan və xarici ölkə alimlərinin bu sahədəki nəzəri nəticələri təşkil edir. Dissertasiyanın təhlil

predmetini elmlərarası xarakter daşıyan problem təşkil etdiyi üçün siyasi fəlsəfə, qlobalistika, hərbi və dövlət idarəçiliyi, hərbi strategiya və s. elmlərin nəzəri yanaşma və metodlarına diqqət yetirilmişdir.

Həmçinin, ümumfəlsəfi və ümumelmi, eləcə də, xüsusi tədqiqat metodları: tarixilik və məntiqiliyin vəhdəti, nəzəri ümumiləşdirmə, sosial proseslərin modelləşdirilməsi və formallaşdırılması, analiz, sintez, induksiya, deduksiya və s. tətbiq edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi-**ilk növbədə tədqiqat predmeti kimi seçilmiş mövzu, qarşıya qoyulan məqsəd və araşdırılan məsələlərdən irəli gəlir.

Ümumilikdə son dövrdə ayrı-ayrılıqda müxtəlif dövlətlərdə, eləcə də, Azərbaycan cəmiyyətində baş verən köklü dəyişikliklər fonunda yeni çalarlar kəsb etmiş, yeni formalaşmış hərbi reallığın qloballaşma, sivilizasiyalararası münasibətlər aspektində dinamikasının sosial-fəlsəfi tədqiqata cəlb edilmişdir.

Tədqiqatın elmi yeniliyinin elementləri aşağıdakılardan ibarətdir:

1. Ən müasir müharibə fenomeni, onun mahiyyət və xüsusiyyətləri, yeni formaları-(hibrid müharibə, asimmetrik müharibə, informasiya-psixoloji, şəbəkə müharibələri, iqtisadi müharibələr (neft, su, qaz, müharibələri, ekoloji və diplomatik müharibələr ) və s., eləcə də onların cəmiyyətə təsiri ilk dəfə olaraq doktorluq dissertasiyası səviyyəsində təhlil edilmişdir;

2. Müasir dövrdə ümumdünya xarakterli problemə, yer üzündə qeyri-sabitliyin həlledici səbəblərindən birinə, bəşəriyyətin gələcəyi üçün ən böyük maneəyə çevrilən müharibə və münaqişələrin yaranması və nəticələrinə, eləcə də həllinə təsir edən amillərdən biri kimi-dövlətlərarası münasibətlərin olması aşkara çıxarılmışdır.

3. Dövlətlərarası münasibətlərdə hərb amilinin dinamikaya uğrayaraq beynəlxalq terrorizm kimi dəhşətli forma kəsb etməsi, bütün dünyanı təhdid edən qlobal problemə çevrilməsi göstərilmişdir;

4. Dissertasiyada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, "Aprel döyüşləri" ən müasir müharibə aspektində təhlil edilmiş, Azərbaycanın hərbi gücünün dövrün çağırışlarına cavab verəcək səviyyədə inkişafına xidmət edən dövlət siyasətinin reallaşdırılmasına, cəmiyyətdə hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi ilə təsirinə diqqət cəlb edilmişdir;

5. Dissertasiyada yeni nəsil müharibələr və onların ənənəvi formalardan tamamilə fərqlənməsi qeyd edilmişdir. Cəmiyyətin adekvat dünyagörüşə malik olması, müasir müharibənin təsəvvürə gəlməz dağıdıcı potensialı və imkanlarının reallaşdırılmasının qarşısının ala bilər, dövlətlərarası dialoq və anlaşmanın formalaşmasına böyük töhfə verə bilər.

6. Qeyd edilir ki, bu gün qlobal məkanda baş verən müharibə və münaqişə prosesləri sosial-fəlsəfi elmin klassik nəzəriyyələrinin çərçivəsinə sığmır. Bu baxımdan, müharibənin cəmiyyətin və bəşəriyyətin həyatına və tərəqqisinə əngəl olan miqyasını azaltmağa xidmət edən sosial-fəlsəfi amillərinin aşkara çıxarılması qloballaşma mərhələsində həmişə olduğundan daha aktual məsələdir.

**Dissertasiyanın elmi və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri elmi-nəzəri və tətbiqi xarakter daşıyır. Tədqiqatın nəzəri əhəmiyyəti problemə yeni elmi-metodoloji yanaşmada, faktiki mənbələrin və məlumatların yeniliyi ilə müəyyən edilir. Dissertasiyada əldə edilmiş müddəalardan dünyada və Azərbaycanda yeni nəsil müharibə, qloballaşma və dünya birliyinin üzləşdiyi yeni çağırışların dərk edilməsində, əlaqəli problemlərinin tədqiq olunmasından faydalanmaq olar.

Tədqiqat işi həmçinin, mövzu ilə bağlı analitik materialların hazırlanması, eləcə də vətəndaşların müasir sivilizasiya və müharibə kimi aktual məsələlər barədə maariflənməsi üçün müəyyən mənbə qismində çıxış edə bilər. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində keçirilən fəlsəfə, politologiya fənlərinin tədrisində, metodik vəsaitlərin yazılmasında, elmi-tədqiqat işlərində istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası.** Tədqiqat işi AMEA-nın Fəlsəfə İnstitutunda yerinə yetirilmiş, rəyçilər tərəfindən "7207.01 – Sosial fəlsəfə" ixtisası üzrə müzakirəyə məsləhət görülmüşdür.

Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin elmi seminarlarda, beynəlxalq və ümumrespublika konfranslarındakı çıxışlarında təqdim edilmişdir.

Dissertasiyanın əsas məzmunu müəllifin ölkədə və xaricdə çap etdirdiyi monoqrafiya və çoxsaylı elmi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu və həcmi**-tədqiqatda qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq tərtib edilmişdir. Dissertasiya girişdən, dörd fəsli əhatə edən on üç yarımfəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktik əhəmiyyəti

müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın "**Müharibələrin mahiyyətinə dair sosial-fəlsəfi təlimlər və nəzəriyyələr tarixinə baxış"** adlanan adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. "**Müharibə, onun genezisi və mahiyyətinin fəlsəfi təhlilinə dair"** adlı birinci yarımfəsil adından göründüyü kimi sadalanan problemlərin araşdırılmasına həsr olunmuşdur**.** Qeyd edilir ki, müharibələr bəşəriyyəti yaranışından müşayiət edən, nə qədər arzu olunmaz sayılsa da, onun yol yoldaşına çevrilən fenomen-hadisələr sırasına daxildir. Tarixdə müharibənin olmadığı dövrlərə rast gəlmək çətindir, praktiki olaraq qeyri-mümkündür. Yalnız onun miqyas və qurbanlarının fəlakətli həddə çatdığı və nisbətən az olduğu nadir illərdən danışmaq mümkündür.

"Müharibə" latın sözü olub, "conflictus" – "toqquşma" deməkdir. Müharibə dövlətlər, millətlər, siniflər arasında hərbi zorakılıq vasitələri ilə aparılan mübarizəni əks etdirən ictimai-siyasi hadisədir. Silahlı mübarizə ilə bərabər, müharibə edənlər öz məqsədlərinə çatmaq üçün iqtisadi, diplomatik, ideoloji və s. mübarizə formalarından da istifadə edirlər. Müharibə dövlətlər, xalqlar və ya düşmən qruplar arasında bir tərəfin iradəsini digər tərəfə tabe etdirmək məqsədi ilə aparılan silahlı mübarizədir.

"Dövlətlərin tarixi səhnəsinə qədəm qoyması ilə dövlətlərarası münasibətlərdə əməkdaşlıq və müharibə problemləri ön plana keçir və dövlətlərin «olum və ya ölüm» məsələsinə çevrilir. "Ən qədim müqavilə", "ultimatum", "barışıq", "iki dövlətin ittifaqı" anlayışları hələ quldarlıq münasibətlərinin mövcud olduğu dövrlərdən bizə məlumdur. E.ə. 616-612-ci illərdə Midiya və Babilin ittifaqı qədim Şərqin ən cəngavər dövlətlərindən olan Assuriyanın varlığına son qoyulması ilə nəticələndi. Qədim Romanın yeritdiyi "parçala və hökm sür!" strategiyası Aralıq dənizi hövzəsində nəhəng quldarlıq imperiyasının yaradılmasına gətirib çıxardı." [1]

Afinalılar və lakedemonlar arasında çoxillik və üzücü müharibələrin səbəbi nədir?- sualını özünə verən Fukidid ona belə cavab verir: "Bunlar qoçaq və çiçəklənən xalqlar idilər, hər biri öz müttəfiqləri üzərində başçılıq edirdilər. Hər iki qüdrətli dövlət imperiyaya çevrildikcə, onlardan birinin güclənməsi bu yolun davam etdirilməsinə zəmin yaradırdı, öz nüfuzu və təsirini saxlamaq üçün ətrafı özünə tabe etməyə sövq edirdi. Fikrimə görə, əsas səbəb bu

[1] Abbasbəyli A.N., Yusifzadə S. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. Bakı, NPM. Təhsil, 2009, 310 səh.-s.5

həqiqətdir ki, afinalılar gücləndikcə lakedomonlara qorxu təlqin edirdilər, onları müharibəyə sövq edirdilər.” [1]

Fukididə görə, dövlətlərarası münaqişədə ən əsas arqument ancaq gücdür. Məsələn, güc vasitəsilə başqa dövləti müəyyən işləri görməyə məcbur etmək olar. Lakin Fukidid hesab edir ki, güc və qüvvə məqsəd deyil. Onlar dövlətin təhlükəsizliyini və nüfuzunu saxlamaq üçün vasitədir. Görünür, Fukidid zorakılığın tərəfdarı deyil. O, gücə əl atmağın zəruriliyini təəssüf hissi ilə qeyd edir. O, məsələləri zorakılıqla həll etmək istəyini insan təbiəti ilə bağlayır. Dövlətlərarası münasibətlərə hüquqi normaların əhəmiyyətini və zəruriliyini qeyd edən Fukidid göstərir ki, tərəflərarası tarazlıq olanda hüquq qüvvədə qalır, əks halda zəif güclünün etdiklərinə müqavimət göstərə bilmir.

Məşhur ingilis filosofu Tomas Hobbs (1588-1769) müharibə fenomenini izah edərək yazırdı: “İnkar etmək olmaz ki, cəmiyyətin yaranmasına qədər, hamının hamıya qarşı müharibəsi insanların təbii vəziyyəti olmuşdur. İnsan varlığının təbiətində müharibənin yaranmasının üç əsas səbəbini tapa bilərik: birincisi, rəqabət; ikincisi, etibarsızlıq; üçüncüsü, şöhrətpərəstlik.”[2]

Dünyada dövlətlərin yaranması, siyasi xəritənin formalaşmasından bu günə qədər mürəkkəb, eyni zamanda çoxçalarlı hadisələrlə səciyyələnmişdir. Tarixçi, filosof və ilahiyyatçı professor P.Tillix yazırdı ki, "Dövlət müharibəni yaradır, müharibə də dövləti yaradır".[3]

Tədqiqatçıların bir çoxu vurğulayır ki, Avropada müasir dövlətlər "döyüş meydanında qurulmuşdur".

Qeyd etmək lazımdır ki, sosial hadisə kimi müharibə ictimai-siyasi və sosial-iqtisadi ziddiyyətlərin hərbi güc vasitəsilə həll edilməsi formalarından biridir. Siyasi hadisə kimi isə müharibə müəyyən hərbi-siyasi situasiyalarda siyasət aləti və vasitəsi rolunda çıxış edir.

Müharibənin sosial-fəlsəfi mahiyyətə malik olması, insana vurduğu dəhşətli ziyan onunla izah olunur ki, insan eyni zamanda həm bu təsirlərin obyekti, həm də subyektidir. Yəni insan fərdiyyətində ideoloji və sosial başlanğıclar sıx əlaqədə olub onun dünya görüşündə və fəaliyyət motivində əsas yer tutur. Cəmiyyət insan üçün təkcə yaşadığı mühit olmayıb, həm də öz imkan və qabiliyyətlərini reallaşdırdığı aləmidir. İnsanın cəmiyyətə münasibəti onun dünyagörüşünü əhatə edir.

---

[1] Кессиди Ф. Х. Философия истории Фукидида. (Серия «Античная библиотека: Исследования»). СПб.: Алетейя. 2008.с.58

[2] Гоббс Т.: Разум и «война всех против всех» //Гоббс, Т. Избранные произведения: В 2 т. – М.:1964. – Т. 2. – с. 71

[3] Tillich, Paul. The Interpretation of History New York.1962.p.71

Adı çəkilən P.Tillix bununla bağlı da qeyd edirdi: 1) tarixə heç kim heç kimin «qonşu»su kimi daxil edilə bilməz;2) tarixdə mövcud olmuş hər hansı etnosun bugünkü varisi var;3) tarix «hadisələrin kaleydoskopu» yox, dialektik (və ya funksional) sistemidir".[1]

Belə demək olarsa, insan cəmiyyətinin tarixi – həm də saysız-hesabsız müharibələr tarixidir. Belə ki, tarix boyu 14,5 min müharibə qeydə alınıb və bu müharibələrdə 4 milyard insan həlak olub.[2]

I və II Dünya müharibələrində ümumilikdə 97 dövlət iştirak etmiş, 42 milyon nəfər insan həlak olmuşdur.

*Dünya müharibələrinin ümumi statistikası*[3]

| | I Dünya müharibəsi | II Dünya müharibəsi |
|---|---|---|
| Davam edib | 1564 gün (4 il və 3.5 ay) | 2195 gün (6 il) |
| Müharibə edən dövlətlərin sayı | 36 | 61 |
| Müharibə aparan dövlətlərin əhalisinin sayı | 1050 mln. (62% dünya əhalisi) | 1700 mln. (80% dünya əhalisi) |
| Bitərəf dövlətlərin sayı | 17 | 6 |
| Həlak olanların sayı | 10 mln. | 32 mln. |
| Yaralananların sayı | 20 mln. | 35 mln. |
| Hərbçilərlə əhalinin ölümünün müqayisəsi | 95% / 5% | 33% / 67% |
| Müharibə aparılan dövlətlərin sayı | 14 | 40 |
| Müharibə aparılan ərazilərin ölçüsü | 4 mln.kv.km | 22 mln.kv.km |
| Orduya çağırılanların sayı | 70 mln. | 110 mln. |

II dünya müharibəsindən sonra 100-dən çox müharibə və hərbi münaqişə baş vermişdir ki, onların da çoxu "üçüncü dünya ölkələri" zonasına düşürdü. Müstəmləkə asılılığında azad olan bu dövlətlər arasında çoxlu həll olunmamış ərazi problemləri qalmışdı (məsələn, Hindistanla Pakistan arasında

[1] Göstərilən əsər. səh.24

[2] Все войны мировой истории (по Харперской энциклопедии военной истории Р. Дюпюи и Т. Дюпюи). Полигон, Санкт-Петербург, 2003, с.61.

[3] Мировые войны. http://petrograd.biz/worldwars/

Kəşmir silahlı toqquşmaları, Malvin adaları uğrunda İngiltərə-Argentina mübahisələri və s.).[1]

XX əsrin sonlarında sosializmin iflası və SSRİ-nin dağılması, onun yerində yeni müstəqil dövlətlərin yaranması dünyanın siyasi xəritəsində yeni vəziyyət yaratdı. Varşava müqaviləsi təşkilatının və SSRİ-nin ləğvindən sonra yaranan yeni dövlətlərdə kəskin qarşıdurma və qeyri-stabillik yarandı. 1994-cü il NATO üzvü olan ölkələrin liderləri Brüssel sammitində "Sülh naminə tərəfdaşlıq" proqramı adlanan yeni bir sənəd qəbul etdilər.[2] Bu, sənəd qəbulunun yeni sisteminin yaranmasına səbəb oldu və Azərbaycan 1994-cü il mayın 4-də bu proqramı imzaladı.[3]

Müharibələri müxtəlif cür-döyüş əməliyyatlarının keçirildiyi coğrafi ərazi üzrə, baş verdiyi zaman müddəti üzrə, orduların ordu tərkibi və miqdarına görə, tətbiq edilən silah növlərinin sayına görə və s. təsnif etmək olar . Lakin müharibələrin təsnifatında ən faciəli meyar-göstərici - həlak olan, qətlə yetirilən, müharibəyə qurban gedən insanlardır. Münaqişə edən tərəflər demək olar ki, heç vaxt dünyada olan ən böyük dəyər- insanın həyat məsələsi üzərində düşünmürlər.

Aşağıda XX əsrin müharibələrinin **müharibə qurbanların sayına görə** təsnifatı verilmişdir: [4]

| № | Müharibənin Adı | Həlak olan insanların sayı | Tarix | Qeydlər |
|---|---|---|---|---|
| 1 | Birinci Dünya Müharibəsi | 15 000 000 (o cümlədən dinc əhali) | 1914-1918 | |
| 2 | İkinci Dünya Müharibəsi | 66 000 000 (o cümlədən dinc əhali) | 1939-1945 | |
| 3 | Koreya müharibəsi | 1 200 000 (əsgər) | 1950-1953 | |
| 4 | Çində vətəndaş Müharibəsi | 1 200 000(əsgər) | 1945-1949 | |
| 5 | Vyetnamda Müharibə | 1 200 000(əsgər) | 1965-1973 | |
| 6 | İran-iraq Müharibəsi | 850 000 (əsgər) | 1980-1988 | |
| 7 | Rusiyada vətəndaş Müharibəsi | 850 000 (əsgər) | 1918-1921 | |
| 8 | Çində vətəndaş | 400 000 (əsgər) | 1927-1937 | |

[1] Разин Е.А. История военного искусства. Т. 2-3. СПб., 1994.с.65
[2] Tərəfdaşlıq vasitəsilə təhlükəsizlik © NATO / OTAN 2005. www.otan.nato.int
[3] Azərbaycan və NATO 15 illik tərəfdaşlıq. Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi VA Building NATO HQ, Boulevard Leopold III, 1110 – Brüssel, Belçika Krallığı . 2010.
[4] http://mostinfo.su/28-voyny-hh-vieka.html

| | | | | |
|---|---|---|---|---|
| | Müharibəsi | | | |
| 9 | Fransız Hind-Çini uğrunda Müharibə | 385 000 (əsgər) | 1945-1954 | |
| 10 | Meksikada inqilab | 200 000 (əsgər) | 1911-1920 | |
| 11 | İspaniyada vətəndaş Müharibəsi | 200 000 (əsgər) | 1936-1939 | |
| 12 | Fransa-Əlcəzair Müharibəsi | 160 000 (əsgər) | 1954-1962 | |
| 13 | Əfqanıstan Müharibəsi | 150 000 (əsgər) | 1980-1989 | |
| 14 | Rus-Yapon Müharibəsi | 130 000 (əsgər) | 1904-1905 | |
| 15 | Rif müharibəsi | 100 000 (əsgər) | 1921-1926 | |
| 16 | Sudanda vətəndaş Müharibəsi | 100 000 (əsgər) | 1956-1972 | |
| 17 | Rusiya-Polşa Müharibəsi | 100 000 (əsgər) | 1919-1920 | |
| 18 | Biafr Müharibəsi | 100 000 (əsgər) | 1967-1970 | |
| 19 | Çako Müharibəsi | 90 000 (əsgər) | 1932-1935 | |
| 20 | Abissin Müharibəsi | 75 000 (əsgər) | 1935-1936 | |

Tədqiqatın birinci fəslinin ikinci yarımfəsli **“Sosial fenomen kimi müharibənin səciyyələndirilməsi”** adlanır. Burada qeyd edilir ki, münaqişə fenomeninin sosial-fəlsəfi mahiyyətinin, meyarının mövcudluğunu sübut etməyə ehtiyac yoxdur. Çünki münaqişə ictimai varlıq olan insanın və cəmiyyət həyatının özünəməxsus vəziyyətidir. İlk əvvəllər nəzəri sosiologiyanın əsas istiqamətlərindən biri kimi yaranmış münaqişələr nəzəriyyəsi sosial fəlsəfənin də bilavasitə tədqiqat obyekti sayılır. Digər tərəfdən məsələnin qoyuluşuna dialektik metodoloji yanaşma fəlsəfənin iştirakını zəruri edir. Münaqişələrin tədqiqində bu cür yanaşma öyrənilən hadisənin son dərəcə mürəkkəb olması faktından irəli gəlir. Çünki burada iqtisadi, siyasi, ekoloji, ideoloji, mədəni, etik və digər ictimai həyata xas amillər uzlaşmış olur.

Müharibə hər şeydən əvvəl, sosial və siyasi hadisədir. Qeyd etmək lazımdır ki, sosial hadisə kimi müharibə ictimai-siyasi və sosial-iqtisadi ziddiyyətlərin hərbi güc vasitəsilə həll edilməsi formalarından biridir.

Müharibə fenomeni zaman keçdikcə elmlərarası (interdissiplinar, multidissiplinar) tədqiqat mövzusu xarakterini kəsb etmişdir. Xüsusilə də, XX əsrdən başlayaraq, bu problem bir sıra elm sahələrinin - politologiya, arxeologiya, etnoqrafiya, psixologiya, tarix, sosiologiya sahəsində tədqiqatçıların diqqətini cəlb etmişdir. Eyni zamanda məhz XX əsrdə bu sahənin

çoxşaxəli elmi istiqamətlər tərəfindən təhlil edilməsi, onun ayrıca bir elm sahəsi kimi formalaşmasını daha da çətinləşdirmişdir.

Antik dövrün görkəmli mütəfəkkiri Aristotel “müharibənin siyasət sənətinin bir hissəsi olduğunu” qeyd etmişdi.[1] Platon müharibəni bəşəriyyətin daimi və təbii halı hesab etmiş, ona “qul ələ keçirmə sənəti” kimi baxmışdır. Heraklitə görə, “müharibə hər şeyin atası, hamının ağasıdır, bəzilərini o, qula, bəzilərini isə azad insana çevirir” – demişdir.

Müharibə və cəmiyyət probleminə dair nəzəri baxışlar sırasında yuxarıda qeyd edilən ingilis mütəfəkkiri Tomas Hobbsı xüsusi qeyd etmək lazımdır. O, özünün “Leviafan” adlı əsərində bildirir ki, təbiətləri etibarilə insanlar qabiliyyətlərinə görə bərabər deyillər, bu da “hamının hamıya qarşı və hər kəsin hər kəsə qarşı müharibəsinə” səbəb olur [2] Yeni dövr hərb nəzəriyyəçiləri, o cümlədən alman K.V.Klauzevits (1770-1831) müharibəni tamın hissəsi adlandırır, tamın siyasət olduğunu bildirir, “Müharibə siyasətin başqa vasitələrlə davamıdır, siyasət əlamətidir” deyirdi.[3]

Hərb və sülh problemlərinə dair orijinal ideyaları alman fəlsəfəsinin nümayəndələri İ.Kant və G.Hegel söyləmişlər. G.Hegelin fikrinə görə müharibələr- beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsinin əsas vasitəsidir. Digər alman mütəfəkkiri İ.Kant “Əbədi sülhə doğru” traktatında deyirdi ki, bəşəriyyət əqli və borcu rəhbər tutaraq ardıcıl islahatlar yolu ilə sülhə gələcəkdir.[4]

Birinci fəslin **“Tarixi inkişaf və hərbi amillərin qarşılıqlı dinamikası”** adlı sonuncu-üçüncü bölməsi tədqiqatın mövzusu baxımından aktual məsələyə həsr olunmuşdur. Elm tarixində müharibələrin tədqiqi gedişində bir çox nəzəriyyələr formalaşmışdır. Qeyd edilən nəzəriyyələrə bunlar aiddir: müharibənin klassik nəzəriyyəsi; müharibənin sinfi təbiətə malik olması haqqında nəzəriyyə; müharibənin plüralistik nəzəriyyəsi; müharibənin pozitivist (praqmatik) nəzəriyyəsi; müharibənin bioloji nəzəriyyəsi; müharibənin dini nəzəriyyəsi; müharibənin sənaye-texniki nəzəriyyəsi;

Bunlardan əlavə müharibələrin ssenari və modelləri, müharibənin yaranmasını şərtləndirən amillərin təhlili, ənənəvi və müasir müharibələrin mahiyyəti sahəsində də çoxsaylı baxış və konsepsiyalar mövcuddur.

---

1 Аристотель. Политика // Сочинения в 4-х томах. М., Мысль, 1983. Т.4. (Перевод С. А. Жебелева)

2 Гоббс, Т. Избранные произведения: В 2 т. – М.:1964. – Т. 2. – с. 71

3 Клаузевиц К. О войне. М.: Госвоениздат, 1934,с.88

4 И.Кант “К вечному миру”. М.: Московский рабочий, 1989,с.106

Platon yazırdı: əksər insanların sülh adlandırdıqları quru addan başqa bir şey deyildir. Reallıqda dövlətlər arasında təbiətən daimi müharibələr mövcuddurlar. Belə müharibələr həmçinin ayrı-ayrı qəsəbələr, evlər və insanlar arasında baş verir. Platonun fikrincə istər cəmiyyət həyatında, istərsə də fərdi həyatda hər şey hər şeylə və hər kəs özü-özü ilə müharibə vəziyyətindədir”.[1]

K.Klauzevits müharibəni dövlət siyasətinin zorakı vasitələrlə, yəni silahlı mübarizə vasitələri ilə davamı kimi xarakterizə etmişdir. Siyasi məramlar məqsəddir, müharibə isə yalnız vasitədir, heç vaxt vasitəni məqsədsiz düşünmək olmaz. K.Klauzevits müharibənin siyasi məqsədlərini məhdud (düşmənin suverenliyini qismən məhdudlaşdırmaq) və qeyri-məhdud (düşməni siyasi cəhətdən tam məhv etmək) məqsədlərə bölür. Hərbi məqsədlərin geniş müxtəlifliyini isə bu cür fərqləndirir: düşmən ordusunu (onun silahlı qüvvələrini) darmadağın etmək; düşmən iqtisadiyyatını iflic etmək; düşmən ərazisini işğal etmək və ya öz ərazisini müdafiə etmək və s.[2]

R.Aron göstərirdi ki, sosial hadisə olan müharibə cəmiyyət tərəfindən törədilir. Müharibə təşkil olunmuş “komandaların” toqquşmasıdır.[3]

Hərb tarixindəki inqilablar müharibənin taktikasını, strategiyasını və əməliyyatların aparılma məharətini dəyişmiş, onların zaman-məkan miqyasını genişləndirmiş, canlı və maddi qüvvənin, məhv edilmə «göstəricilərini» daim artırmışdır. Lakin bununla belə hərb tarixində heç zaman müharibəni onun subyektiv xarakterindən təcrid edə biləcək mübarizə vasitəsi yarada bilməmişlər.[4]

Dissertasiyanın **“Dövlətlərarası münasibətlərdə hərbi amillərin metodoloji və nəzəri əsasları”** adlanan ikinci fəsli dörd yarımfəsildən ibarətdir. **“Müasir mərhələdə münaqişə və müharibələrin xarakter və məqsədində baş verən dəyişikliklər, əsas meyllər”** adlı birinci yarımfəsil tədqiqat mövzusu baxımından mühüm məsələnin təhlilinə həsr olunmuşdur. Burada qeyd edilir ki, hərb tarixində hər bir dövr özünəməxsus texnoloji və siyasi xüsusiyyətlərə, müvafiq olaraq müharibə modelinə malikdir.

Müasir informasiya cəmiyyətinin, postmodern mərhələnin başlıca xüsusiyyətlərindən biri də budur ki, müharibənin xarakteri əvvəlki dövrdə olduğundan tamamilə fərqlənir.

---

[1] Əsədov E.Müharibənin mahiyyətinin sosial-fəlsəfi prizmadan izahı// http://oriental philosophy.org/nesrler/ meqale/ 69-muharbenn-mahyyetnn-felsef-przmadan-zah.html
[2] К.Клаузевиц. О войне. Т.I. — М.: «Изд. АСТ», 2002,с.211
[3] Арон Р. Война и мир между народами. М., NOTA BENE, 2000. s.417
[4] Нартов Н.А. Геополитика: Учебник для вузов. М.: ЮНИТИ, 1999. - 359 с.

İnformasiya elmi və “məlumatların ötürülmə sistemi” nəzəriyyəsi sahəsində tədqiqatlar aparan, politologiya elmləri doktoru Fransua-Bernar Uiq müasir müharibənin mahiyyətcə tamamilə dəyişikliyə uğramasına dair araşdırmaların müəllifidir. Onun fikrinə görə, bu dəyişiklik müharibələrin elan edilməsi ənənəsindən tutmuş, onun aparılmasına, tətbiq edilən hərbi texniki silahlara qədər bütün aspektləri əhatə edir.[1]

Müharibələrin xarakteristikaları, səbəbləri, mahiyyəti hərbi əməliyyatların aparılması vasitələrinin və üsullarının dəyişikliyə uğraması və inkişafına uyğun olaraq dəyişir. "Hal-hazırda müharibələrin-cəmiyyət həyatının özünəməxsus vəziyyəti olan bu fenomenin - tədqiqi və öyrənilməsinin səviyyəsi, nə cəmiyyətin həyatında, nə beynəlxalq münasibətlərin, dünya siyasətinin müasir sistemində, nə də ayrı-ayrı dövlətlərin həyatında bu siyasi və sosial fenomenin malik olduğu əhəmiyyətə, oynadığı rola adekvat deyildir.”[2]

Bütün bunlar bir daha ona dəlalət edir ki, *sosial fenomen-hadisə kimi müharibə anomaliyaya çevrilmir, əksinə, yalnız mahiyyət dəyişikliyinə uğrayaraq, əvvəlki cizgilərini itirir və əvəzində yeni xüsusiyyətlər kəsb edir.*

Yeni başa çatan XX əsrdə müharibənin başlıca əlamətləri bunlar idi: mübarizə edən tərəflər, beynəlxalq münasibətlər sistemində müəyyən statusa malik olan və hərbi döyüş əməliyyatlarında iştirak edən tərəflər;rəqib-düşmən tərəflərin arasında mübahisənin konkret aydın olunan predmeti; silahlı mübarizənin dəqiq müəyyən edilmiş ərazi-məkan parametrləri, yəni lokallaşdırılmış döyüş meydanının mövcudluğu və rəqiblərin ərazisinin arxa və ön cəbhəyə bölünməsi.Müharibə vəziyyəti ilə dinc dövr anlayışlarının və şəraitin arasında sərhədləri itməsi, şəffaflaşması.

Digər maraqlı məqam isə, müasir müharibənin *münaqişə tiplərinin r*adikal dəyişməsin dəlalət edən daha bir amildir. [3]

Ən yeni müharibənin mahiyyətində həlledici yer tutan informasiya amili ilə yanaşı digər amil- siyasi amilin qabarıq nəzərə çarpması da nəzərdən qaçırılmamalıdır. Belə ki, ən yeni hərbi-texnoloji inqilabın nailiyyətlərinə güvənərək hərbi əməliyyatlarla bağlı əsasən ədalətsiz siyasi qərarların, sanksiyaların verilməsi də yeni nəsil müharibələrə xas olan cəhətlərdəndir.

---

[1] Франсуа-Бернар Уиг. Неоднозначность понятия войны//http://netess.ru /3knigi999507-1-neodnoznachnost-ponyatiya-voyni-fransua-bernar-uig-fransua-bernar-uig-doktor-nauk-oblasti-politologii-zanimaetsya-issledo.php

[2] А.А. Кокошин. О политическом смысле победы в современной войне. М.: УРСС, 2004.с.43

[3] William Polk. Violent Politics: A History of Insurgency, Terrorism, and Guerrilla War, from the American Revolution to Iraq .Harper, 2008.

Nəhayət, dövlətlərarası hərbi əməliyyatlarla bağlı verilən sanksiya-qərarların "ikili standartlar" siyasətinə tabe etdirilməsi postmodern mərhələnin ayrılmaz xüsusiyyətinə çevrilmişdir.

Tədqiqatın ikinci fəslinin növbəti yarımfəsli "**Müharibələrin ənənəvi və yeni növləri və sosial nəticələri"** adlanır.

Qeyd edilir ki, tarixən Müharibələrin və hərbi konfliktlərin təsnifatı müxtəlif mərhələlərdə dəyişikliyə uğrayır. Əsasın isə onların mahiyyətini təşkil edən əlamətlərin ümumiliyi prinsiplərinə əsaslanır. Müharibələr bir neçə meyar və göstəriciləri baxımından aşağıdakı xüsusiyyətlərinə görə təsnif edilir:

*Siyasi məzmununa görə* müharibələr ədalətli və ədalətsiz müharibələr; *Hərbi-texniki amillərə* görə adi silahla və kütləvi qırğın silahları ilə aparılan müharibələr;*Miqyasına görə* dünya müharibəsi və lokal müharibələr;İştirakçı dövlətlərin tərkibinə görə ikitərəfli və koalisiyalı müharibələr;*Hər hansı hakim qrupun marağına görə*, irqi və dini ziddiyyətlər və ya fikir ayrılıqları üzündən aparılan müharibələr (etnik, vətəndaş, ticarət müharibələri); *Aparıldığı konkret əraziyə görə* quruda, dənizdə, səhra-çöl şəraitində aparılan müharibələr;*Müxtəlif ölkələr və ya ölkələr qrupu* arasında ərazi konfliktləri.[1]

Ümumiyyətlə, bu və ya digər müharibənin tipologiyasını təyin etmək çətindir. Münaqişə və müharibələri bəzi digər meyarlara görə də təsnif etməyə çalışırlar. Müharibələr- iştirakçı tərəflərə münasibətdə daha çox nəzərə çarpan **daxili** və **xarici** müharibələrdir.[2]

Xarici müharibə və münaqişələrin özlərinin də tipləri mövcuddur:

–**Tayfalar arası (xalqlar arası) müharibələr** tarixən müharibələrin ilk formasıdır. Lakin bir dövlətin sərhədləri çərçivəsində baş verən **etnoslar arası münaqişələr** daxili müharibələr hesab edilir.

–Dövlətlərin ayrı-ayrı dövlət sərhədindən kənarda yaşayan tayfalara qarşı apardıqları müharibələr də xarici müharibələrə aid edilir.

–**Dövlətlərarası müharibələr** klassik müharibə formasıdır. Bu zaman dövlətlər arasında müxtəlif müqavilələr bağlana bilər.

–**Koalisiya müharibələri** dövlətlərarası müharibə formasıdır. Koalisiya müharibələrinin xarakterik xüsusiyyətləri belədir ki, hər hansı bir hərbi-siyasi ittifaq başqa bir ölkəyə, yaxud hərbi ittifaqa qarşı müharibə aparır.

–**Dünya müharibələri** dövlətlərarası müharibələrin ən böyük formasıdır. Bu zaman müharibə Yer kürəsi əhalisinin böyük bir qismini və

---

[1] B. Zellen. Rethinking the Unthinkable: Nuclear Weapons and the War on Terror // Strategic Insights. 2004. Volume III. Issue 1.

[2] Военный энциклопедический словарь / Пред. гл. ред. комиссии Н. В. Огарков. - Москва,: Военное издательство, 1983

ərazisini əhatə edir. Bu zaman tərəflər heç bir ittifaq yaratmadan ümumi düşmənə qarşı müharibə aparırlar.İkinci fəslin "**İnformasiya müharibələri və texnologiyaları. Hərbi münaqişələrin yeni metodları kimi"** adlanan üçüncü yarımfəsli bu sahədə mövcud olan məsələlərin təhlilinə həsr olunmuşdur. Qeyd olunur ki, Bu gün tarixi "informasiya müharibəsi" haqqında çox danışılır. «İnformasiya müharibəsi» sözü sadə dillə informasiyaya silah anlamında baxmaq mənasını verir. Bununla belə, əgər sözügedən anlayışı dərindən araşdırsaq, bir neçə sual meydana çıxa bilər. Məsələn, İM necə gedir? O, hansı vasitələrlə aparılır və ortaya hansı məqsədlər qoyulur? Bunu silahlı basqın kimi qəbul etmək olar, yoxsa yox? Bütün suallar öz elmi şərhini gözləyir.[1]

«İnformasiya müharibəsi» dedikdə, əsasən düşmən (rəqib) dövlətin bütün qurumlarının iflic vəziyyətə salınması nəzərdə tutulur.

Dünya yaranandan bəri dövlətlər arasında informasiya müharibələri aparılır və belə proseslər yalnız hərdən "qaynar müharibələrlə" nəticələnir.

Hərbi-siyasi və informasiya ilə bağlı şəraitin təhlili göstərir ki, müasir dünyada bir sıra aparıcı dövlətlər (ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Hindistan və Çin) informasiya məkanına hakim olmağa, təhlükəsizliklə bağlı strategiyanı möhkəmləndirməyə çalışırlar.

Tədricən informasiya qarşıdurması getdikcə hərbi-texnoloji sferadan, siyasi manipulyasiya metodunun köməyi ilə formalaşan dünyagörüşü sahəsinə keçməkdədir. Hal-hazırda hərbi əməliyyatlara təbliğat dəstəyinin verilməsi məcburi şəkildə həyata keçirilir. Bu sahədə aparıcı mövqe, müvafiq mütəxəssislərin hazırlanması sahəsində dünyada ən geniş proqrama malik olan ANŞ-a aiddir (onların hazırlandığı əsas yer Fort Bregdəki Xüsusi Əməliyyatlar Məktəbinin C.Kennedi adına Mərkəzidir).[2]

Ədəbiyyatda qeyd edilir ki, "informasiya müharibəsi" sözünü ilk dəfə Tomas Rona 1976-cı ildə Boinq kampaniyası üçün yazdığı " Silah sistemi və informasiya müharibəsi" adlı hesabatında işlətmişdir. T.Rona göstərdi ki, informasiya sənayesi getdikcə Amerika iqtisadiyyatının həlledici komponentinə çevrilir və həm müharibə, həm də sülh dövrü ilə bağlıdır. Bu hesabatı İM-nin ilk rəsmi xatırlanması kimi qəbul etmək olar. T.Ronanın yazdığı hesabat

[1] Манойло А.В., Информационно-психологическая война: факторы, определяющие формат современного вооруженного конфликта.-Киев: Материалы V Международной научно-практической конференции «Информационные технологии и безопасность», вып. №8, 2005 г., с. 73-80

[2] Jane's Sentinel Security Assessment - North America / Jane's Information Group, 2004

müzakirələrin başlanmasına səbəb oldu. Tədricən belə fikir formalaşdı ki, informasiya həm məqsəd, həm də silah ola bilər.[1]

"1991-ci ildə "Səhrada tufan" əməliyyatından sonra informasiya texnologiyalarından döyüş əməliyyatının əsas vasitələri kimi istifadə edilməyə başlandı. 21 dekabr 1992-ci ildə həmin termin qanun əsasında müdafiə nazirinin direktivinə daxil edildi.1996-cı ildə isə ABŞ-ın Müdafiə Nazirliyi "İdarəetmə sistemlərində nəzarətə qarşı mübarizə doktrinası" həyata keçirdi. "[2]

Beləliklə, XXI əsrdə döyüş əməliyyatının aparılması – qurudan, dənizdən, havadan və kosmosdan başqa, informasiya təbəqəsini özündə əks etdirdi. Ədəbiyyatda buna misal olaraq, ABŞ-ın İraqla bağlı apardığı müharibəni misal göstərirlər. Qeyd edilir ki, yeni müharibənin əsas obyekti informasiya strukturu və düşmən psixikasıdır.[3]

"Görünən bu idi ki, hərbi rəhbərliyin müharibədə KİV-in rolu ilə bağlı informasiya strategiyası bir neçə istiqamətdə müəyyən edilmişdi:

-Konkret məsələlər üzrə təlimləndirilmiş jurnalistlərdən istifadə edilməsi;

Bir tərəfə sərf edən məqsədyönlü, yalan məlumatların yayılması; ABŞ-ın mövqeyinə qarşı olan "düşmən" jurnalistlərin və media orqanlarının aşkar təhdid edilməsi, hətta qətlə yetirilməsi və ya partladılması; mərkəzləşdirilmiş təbliğat-koordinasiya mexanizminin, yəni Qlobal Kommunikasiya İdarəsinin yaradılması. Planlaşdırma və strategiyalarının bu səviyyəsi yeni deyildi, artıq dövlət-KİV əməkdaşlığının on illər boyu birgə fəaliyyətinin kulminasiya nöqtələri kimi ortaya çıxmışdı.

Son illərdə informasiya inqilabı termini ilə yanaşı, məntiqi olaraq "hərbi texnoloji informasiya inqilabı" (HTİİ) konsepsiyası da araşdırmaların mövzusunu təşkil edir. İnformasiya müharibəsi onun tərkib hissəsi hesab edilir.

HTİİ-nin yeni imkanlarından istifadə ilə bağlı ən azı *beş müxtəlif konsepsiya* formalaşmışdır.

1. Təhlükəsiz məsafədən "təmas olmadan" zərbə nəzəriyyəsi. Burada ideya şəxsi heyəti və texnikanı qorumaq məqsədilə düşmənlə bilavasitə təmasdan qaçmaq, ona uzaq məsafədən, yüksək hissiyyatlı sensorlar, idarəetmə

---

[1] Thomas P. RonaWeapon Systems and Information War.1976,86 p //http: www.dod.mil/pubs/foi/ homeland_ defense /missile_defense_agency/09-F-0070WeaponSystems_and_Information_War.pdf

[2] Douglas H. Dearth.Rethinking the Application of Power in the 21st Century//http://fas.org /irp/ agency/army/mipb/1997-1/dearth.htm

[3] Deepa Kumar.Media, War, and Propaganda: Strategiesof Information Management During the2003 Iraq War. 2006.//http://www.tandfonline.com/doi/pdf/10.1080/14791420500505650

və istiqamətverici sistemlər tərəfindən əlaqələndirilən və istiqamətləndirilən zərbələr endirməkdən ibarətdir.

2. İnformasiya müharibəsi *(information warfare)* konsepsiyası mövcuddur, bu konsepsiya əvvəlcə E. Marşall tərəfindən təklif olunmuş, sonradan amerikalı alim R.Molander tərəfindən inkişaf etdirilmişdir. Bu konsepsiyanın mahiyyəti düşmənin informasiya sistemini dağıtmaq, özününkünü isə qorumaq məqsədilə səyləri hərbi kampaniyanın informasiya komponentinə yönəltməkdən ibarətdir. [1]

İnformasiya nədir?

1998-ci ildə ABŞ-ın Müdafiə Nazirliyi «Birləşdirilmiş informasiya əməliyyatı doktrinası»nın fəaliyyətini təsdiqlədi. Doktrinada informasiya əməliyyatı aşağıdakı kimi şərh olunurdu:

- İnformasiya əməliyyatı-məlumatın toplanmasını əngəlləmək, informasiyanın işlənilməsinə və toplanıb saxlanılmasına mane olmaq, öz informasiya sistemini qorumaq şərti ilə aparılır.
- İnformasiya müharibəsi – dövlət sisteminin və hərbi idarəçiliyin kompleks şəkildə hərbi siyasi rəhbərliyə təsiri, digər tərəfdən sülh dövründə təşəbbüskar tərəfin xoşagələn informasiya təsiri barədə qərarın qəbul edilməsini, hər hansı konfliktin gedişində düşmənin infrastruktur idarəçiliyini iflic edə bilən bir prosesdir.[2]

İkinci fəslin "**Ekoloji müharibələrin qlobal və lokal səviyyələri**" adlanan sonuncu yarımfəslində göstərilir ki, ekoloji problemlər sivilizasiyanın təbii təkamülünün gedişində meydana gəlmişdir. XX əsrin 60-cı illərindən etibarən elmi, daha sonra siyasi leksikonda tez-tez "ekoloji böhran", "ekoloji fəlakət", "ekoloji təhlükəsizlik" terminləri işlədilməyə başlandı. Keçən yüzilliyin sonlarında insan fotosintez hesabına alınan ilkin bioloji məhsulun cəmi 1%-ni istifadə edirdi və bu ətraf mühitin vəziyyətinə ciddi təsir göstərmirdi. Hazırda isə ilkin bioloji məhsulun 40%-ni insan istifadə edərək, digər orqanizmləri belə imkandan məhrum edir. Kənd təsərrüfatı üçün yararlı olan 1,5 mlrd. hektar torpaqların üst münbit qatının 20%-i sıradan çıxmış, tropik meşələrin 70%-i qırılmışdır. Ümumi hesablamalara görə səhralaşma

---

[1] Strategic Information Warfare: A New Face of War. by Roger C. Molander, Andrew S. Riddile, and Peter A. Wilson (rand.org). 1996.p.10

[2] Воронцова Л. В., Фролов Д. Б. История и современность информационного противоборства. — М.: Горячая линия - Телеком, 2006.с.81

prosesinin sürəti ildə 6 mln. hektardır. Meşələrin sahəsi isə bir ildə 11 milyon hektar azalır.[1]

Qeyd etmək lazımdır ki, müasir dövrdə insanlığa qarşı cinayətin ən dəhşətli təzahürü olan genosidlə son illərdə elmi ədəbiyyata gətirilmiş ekosid termini yanaşı işlədilməyə başlanmışdır.[2] Ekosid nəticəsində təbiətə vurulan yaralar on illərlə ( ən azı 20 ildən çox) sağalmır, yandırılmış torpaqlar uzun müddətə bərpa olunur. «Ekosid- təbiətin dağıdılmasına yönəlmiş ekoloji silahın tətbiqi ilə aparılan ekoloji müharibəyə deyilir».[3]

Ekoloji müharibə, ayrıca götürülmüş ərazidə aparılsa da bütün bəşəriyyətə, onun ekoloji təhlükəsizliyinə qarşı yönəldilmişdir Buraya həmçinin nüvə silahı, nüvə sınaqlarının qadağan olunması, kimyəvi, bakterioloji, radioloji silahların və s. kütləvi qırğın silahlarının qadağan edilməsi də daxildir. Ən yeni texnologiyalara əsaslanan «ağıllı» silah (neytron bombası) da dəhşətli ekoloji nəticələrə gətirib çıxarır.[4]

Hazırda ekoloji müharibə metodlarının dünyanın bir çox bölgələrində geniş tətbiq edildiyi və acınacaqlı nəticələri barədə geniş məlumatlar mövcuddur. Belə ki, 1967 – 1972-ci illərdə ABŞ tərəfindən Vyetnamda aparılan müharibədə kimyəvi elementlərin buludlara səpələnməsi nəticəsində süni leysanlar törətmiş, hərbi texnikanın sıradan çıxması üçün də bundan istifadə edilmişdir. Süni yağışların ən böyük qorxusu onların təbii mühitin: su, istilik və s. balansı üçün, bioloji növ olan insan üçün hələ sona qədər tədqiq edilməmiş dəhşətli nəticələr verməsidir.

*Ekoloji müharibənin yeni formalarından biri də-su müharibələridir.* Su müharibələrini ümumilikdə ekoloji müharibələrin tərkib hissəsi kimi təhlil etmək də olar. Azərbaycanlı alimlərdən Ə.Həbibbəyli də XXI əsrdə su müharibələrinin səbəbi ola biləcək yaxud da onun qarşısını alacaq su diplomatiyası problemini tədqiq etmişdir.[5]

Müəllif problemin bütün kəskinliyini ifadə edən statistik rəqəmlərə yer vermişdir. "Müasir dövrümüzdə içməli su mənbələrinin çatışmazlığı dünyanı təhdid edən qlobal problemlərdən biridir. XXI əsrdə su geostrateji əhəmiyyətinə görə neftin XX əsrdəki yerini tuta bilər". Digər müəllifə görə,

---

[1] Левин А.С. Глобальные проблемы современного мира: Курс лекций. - Силламяэ: МЭТК, 1999. - 123 с.
[2] Небел Б. Наука об окружающей среде. Как устроен мир: В 2 т. М., 1993
[3] Моисеев Н.Н. Устойчивое развитие и экологическое образование // Философские аспекты социальной экологии. М., 1996. С. 1-12.
[4] Современные проблемы экологии. М., 1997
[5] Ərəstü Həbibbəyli. Su diplomatiyası.// http://525.az/site/?name=xeber&news_id=6249

“Əgər, bu gün şirin suyun bir litrinin qiyməti bir litr neftin satışı ilə bərabər səviyyəyə gəlib çatıbsa, sabahın acı gələcəyini təsəvvür etmək heç də çətin deyildir. Su qıtlığı ilə əlaqədar yaxınlaşan təhlükəni nəzərə alaraq, bir çox dövlətlər bu sahədə strateji plan və layihələr hazırlamışlar. "[1]

Məlum olduğu kimi. " Sərsəng su anbarı 1976-cı ildə inşa edilib və 1992-ci ildən Ermənistanın işğalı altındadır və texniki qurğuların baxımsızlığı nəticəsində hazırda qəza vəziyyətindədir. 125 m yüksəklikdə. Avropada ikinci ən hündür su anbarıdır. Anbarda baş verə biləcək hər hansı qəza nəticəsində Azərbaycanın cəbhəyanı 6 rayonunun – Yevlax, Goranboy, Tərtər, Bərdə, Ağdam, Ağcabədi rayonlarının 400 mindən artıq əhalisi qısa vaxt ərzində məhv olmaq təhlükəsi ilə üz-üzədir. Sərsəng su anbarında 570 milyon kub metr su var. Bu, olduqca böyük bir həcmdir. Bənd dağılsa, 570 milyon kub.metr su sürətli axınla Bərdəyə tərəf gedəcək. 12-20 dəqiqədən sonra su artıq Bərdəyə çatacaq. Bərdədə 40-50 sm hündürlüyündə bütün çölləri bürüyəcək".[2]

Avropa Şurası Parlament Assambleyasının 2085 saylı qətnaməsində ekoloji təcavüzdən söhbət gedir. Qətnamədə"7.2.Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırmağı tələb edir.”Bu qətnamənin ən mühüm hissəsi odur ki, AŞPA "Ermənistanı açıq-aydın Azərbaycanın Dağlıq Qarabağ və digər qonşu ərazilərinin işğalçısı” kimi təqdim edir və AŞPA "Ermənistan silahlı qüvvələrinin bölgədən dərhal geri çəkilməsi üçün rəsmi tələb” qəbul etdi".[3]

Ermənistanın Azərbaycana qarşı ekoloji terror siyasəti öz mahiyyəti və reallaşdırılması mexanizmləri baxımından olduqca müxtəlifdir. Bu baxımdan su ehtiyatlarının çirkləndirilməsi taktikası da Ermənistanın ekoloji terror siyasətinin əsas təsir elementlərindən sayılır. Nəzərə alsaq ki, “Cənubi Qafqazın ümumi şirin su ehtiyatlarının 62%-i Gürcüstanın, 28% – i Ermənistanın və yalnız 10%-i Azərbaycanın payına düşür, bu halda problemin kifayət qədər ciddi olduğunu anlamaq mümkündür. Sadalanan reallıqlar

---

[1] A.Qurbanov.Hidroböhranlar, hidromünaqişələr və hidrosiyasət. Azərbaycan Respublikasının Prezidenti Yanında SAM nəşri. Bakı.2013,130 s;səh. 6.

[2] Samir İsayev: “Bənd dağılsa, 570 milyon kub.metr su sürətli axınla Bərdəyə tərəf gedəcək.//http://1905.az/samir-isayev-b%C9%99nd-dagilsa-570-milyon-kub-metr-su-suer%

[3] "Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdlə içməli sudan məhrum edilməsi” adlı məruzə AŞPA-da qəbul edilib// http://www.sarsang.org/general-information/

fonunda kimyəvi və bioloji cəhətdən çirkləndirilmiş 350 mln. kub metrdən artıq su kütləsi hər il Ermənistan ərazisindən Kür çayı hövzəsinə tökülür".[1]

Dissertasiyanın "**Ümumbəşəri, qlobal təhlükəsizliyin sivilizasiya aspektləri**" adlı üçüncü fəsli üç yarımfəsildən ibarətdir. "**Beynəlxalq terrorizm fenomeni və müharibə amili"** adlanan birinci yarımfəsildə belə qənaətə gəlinir ki, Müasir dövrdə ictimaiyyatşünaslar "terrorizm" hadisəsinin mahiyyətinə dair geniş müzakirə və təhlillər aparırlar. 11 sentyabr hadisələrindən sonra terrorizmin beynəlxalq hüquqi kontekstdə, bəşəriyyət əleyhinə törədilən cinayət kimi təhlilinə dair çoxsaylı baxışlar mövcuddur.

"Beynəlxalq terrorizm" anlayışı XX əsrin 70-ci illərinin əvvəllərində meydana gəlmişdir. "Beynəlxalq terrorizm" mürəkkəb anlayış olmaqla yanaşı, həm də çoxaspektli sosial-siyasi hadisədir. [2] Professor E.Nəsirovun qeyd etdiyi kimi, "Beynəlxalq terrorizm XXI əsrdə bəşəriyyət üçün ən qorxulu təhlükə hesab edilir. Terrorçuluq fəaliyyətinin bu növünü bəzən səhv olaraq «İslam terrorizmi» kimi də qiymətləndirməyə cəhdlər göstərilir." [3] Terror aktı aşağıdakı hallarda beynəlxalq terror kimi qiymətləndirilə bilər: dövlətlərarası münasibətlərə, beynəlxalq hüquq normalarına, beynəlxalq nizama və təhlükəsizliyə, dövlətin beynəlxalq maraqlarına təhlükə yaratdıqda;şəxs, aid olduğu dövlətin ərazisində digər bir dövlətin vətəndaşına qarşı terror aktı törətdikdə;hər hansı bir dövlətin dəstəyi ilə digər dövlətin ərazisində terror aktı həyata keçirildikdə və s..[4].

XXI əsrdə beynəlxalq terrorizmə qarşı mübarizə elan edən ölkələr əslində beynəlxalq terrorizm qüvvələri kimi çıxış edirlər desək, bəlkə də yanılmarıq. Belə ki, ilk növbədə ABŞ və müttəfiqləri başqa ölkələrin ərazilərində müharibələr aparırlar.

F.Fukuyama 1989-cu ildə nəşr etdirdiyi «Tarixin sonu» adlı məqaləsində (1992-ci ildə eyni adlı kitab nəşr etdirmişdir) qeyd edirdi: «Bizim müşahidə etdiyimiz sadəcə soyuq müharibənin sonu deyil, əslində tarixin

---

[1] Z. Əliyev. Ekoloji terror və Sərsəng su anbarı// http://karabakhmedia.az/main/267-ekoloji-terror-ve-serseng-su-anbari.html// http://karabakhmedia.az/main/267-ekoloji-terror-ve-serseng-su-anbari.html

[2] Севдималиев Р. Международный терроризм –глобальная проблема современности.- Б.: Элм, 2004.-294 с

[3] Elman Nəsirov. Beynəlxalq terrorizm və İslam: Əks qütblər// http://publika.az/p/10008

[4] Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri: Metodik vəsait /Tərtib ed. M.Məmmədov; Burax. məs.K.Tahirov; Red. D.Bayramov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- B., 2009

sonudur: yəni bu, ideoloji təkamülün sonu və bəşəriyyətin sonuncu idarəetmə forması kimi çıxış edən qərb liberal demokratiyasının universallaşmasıdır».[1]

11 sentyabr hadisələrinin nəticələri o qədər faciəvi və təkrarolunmaz idi ki, dini və siyasi baxışından asılı olmayaraq, bütün insanları eyni dərəcədə sarsıtmışdıBuna görə də qlobal terrorizmlə qlobal mübarizənin formalaşdırılması dövründə ümumbəşəri dəyərlər müstəvisində düşüncə tərzinin yaradılması çox böyük əhəmiyyət kəsb edir.[2]

Hazırda dünyada ən qəddar terrorçu təşkilat kimi tanınmış İŞİD qruplaşması, onun hərbi-terrorçu fəaliyyəti ilə dünya birliyinin mübarizəsi gündəmin ən kəskin mövzularından birini təşkil edir. İstər qeyd edilən terrorçu təşkilatın, istərsə də buna bənzər digər terrorçu qrupların sıralarına dünyanın demək olar ki, bütün bölgələrindən döyüşçülərin qoşulması ayrıca tədqiqit mövzusudur.

Akademik R.Mehdiyev yuxarıda adı çəkilən sonuncu kitabında postmodern müharibələrin mahiyyətinə yer ayıraraq yazmışdır ki, XX əsrin ikinci yarısında SSRİ və ABŞ "düşmənimin düşməni mənim dostumdur" prinsipini rəhbər tutaraq, müvafiq surətdə Vyetnamı və əfqan mücahidlərini dəstəkləyirdilər. Həm qeyri-konvensional, həm də hibrid müharibə strategiyasının tətbiq edilməsinin xüsusiyyəti ondan ibarətdir ki, bu strategiya əsas etibarilə dost olmayan dövlətin sərhədlərində və qonşu dövlətlərin ərazisində həyata keçirilir.

Üçüncü fəslin ikinci yarımbölməsi **"Çoxqütblü dünya düzəni, müharibələrin müasir təhlili və nizamlanması məsələləri"** adlanır. Burada qeyd edilir ki, hələ ötən yüzilliyin sonlarına doğru ikiqütblü dünyanın çoxqütblü dünyaya transformasiyası gedişində, eləcə də qloballaşma prosesinin bütün istiqamətlərdə güclü təsiri, "yeni dünya nizamı" na dair ümidlərin qısa zamanda "yeni dünya nizamsızlığı" haqqında düşüncələrlə əvəzlənməsinə səbəb olmuşdu. Bazar "fundamentalizmi" və qlobal kapitalizmin tənqidi "nə sosializm, nə də kapitalizm olmayan, başlıca qüsuru dəyərlər böhranı kimi adlandırılan sivilizasiyanın üzləşdiyi gerçəkliyin dərk edilməsində rasionalizmin imkanlarının məhdudluğunun aşkara çıxardı.

XX əsrin sonları və XXI yüzilliyin əvvəllərində qloballaşan dünyada "qeyri-dövlət" adlandırılan yeni aktorların sayının (diasporlar, etnik, dini,

---

[1] Фукуяма Ф. «Конец истории?»,// «Вопросы философии»-М., 1990, №9, с. 23-79.

[2] Авдеев Ю.И. Современный терроризм – угроза международной и национальной безопас ности (эволюция терроризма во второй половине XX века) // Проблемы борьбы с терроризмом и организованной преступностью: Материалы науч.-практ. конф. / Уфим. юрид. ин-т МВД РФ. – Уфа, 1999. – С.4.

mədəni və s. qrupların, beynəlxalq qeyri-hökumət təşkilatlarının ) getdikcə yüksələn xətt üzrə siyasi çəkisinin artması, müharibə və sülh məsələlərinin həllində milli dövlətlərin malik olduğu inhisarçılığın itirilməsi tendensiyasını ümumi meylə çevirdi.

İnsanların (dövlətlərin, tayfaların, partiyaların, bütövlükdə böyük sosial qrupların arasında silahlı mübarizə kimi baş verən müharibə, vuruşan tərəflərin vəzifələrini (mülki əhalinin müdafiəsinin təminatı, hərbi əsirlərə münasibətin nizama salınması, xüsusilə amansız silah növlərindən istifadəyə qadağaları) müəyyən edən qanunlarla və adətlərlə tənzim edilir – beynəlxalq hüququn normaları və prinsiplərinin məcmusu ilə tənzimlənir.

Müharibələrin inkişafı, dinamikası–texnoloji tərəqqi və demoqrafik dəyişikliklərin nəticəsidir. Bu proseslər gedişində, strateji və texniki sabitliyin uzunmüddətli mərhələləri, qəfil baş verən dəyişikliklərə transformasiyaya uğrayır.

Yeni müharibələrin qeyri-adi təbiətini başa düşmək sahəsində aşkar irəliləyiş 2001-ci il 11 sentyabr terror aktlarından sonra baş verdi. Məhz o zaman Amerika xarici siyasət təfəkküründə və amerikalıların müharibəyə baxışlarında transformasiyalar baş verdi. Alimlər və digər ölkələrin siyasətçiləri Amerika təcrübəsini dərk edərək, yeni nəsil müharibələrin siyasi aspektlərinə diqqət yetirməyə başladılar.[1]

Bu yarımfəsildə müasir müharibələrin yeni növü kimi "hibrid müharibələrinin təhlilinə yer verilmişdir. Qeyd edilir ki, "Hibrid" ifadəsi – "mürəkkəb", "kompleks" sözlərinin sinonimidir.Bu gizli və aydın olmayan, yeni vasitələrlə aparılan müharibə prinsip etibarı ilə industrial müharibədir. Ərazi işğalına, düşmənin məhvinə və işğal olunmuş ərazilərdə yeni qaydaların bərqərar olunmasına aparan industrial müharibə özünü nizamlı kütləvi logistikadan ibarət mürəkkəb texnoloji proses kimi qələmə verir.

"Hibrid müharibə" yeni anlayış olmasa da, lakin bu gün aktuallıq kəsb edir. 1960-ci illərdə Rusiyalı hərb elmləri üzrə professor E.Messner mənası "üsyançı-müharibələrə" aid olan bir neçə kitablarında apardığı paralellər hazırkı hibrid müharibələrlə eyniyyət daşıyır.

Dissertasiyanın üçüncü fəslinin son yarımbölməsi "**«Savaş təfəkkürün»dən sülh mədəniyyətinə keçidin fəlsəfi-mənəvi əsasları"** adlanır. Burada qeyd edilir ki, Müharibə və sülh problemi, münaqişələrə son qoyulması "ədalətli müharibə" anlayışı ilə sıx bağlıdır. Məşhur deyimə görə: "Sülh müharibənin olmaması demək deyil, sülh ədalətin olması deməkdir".

---

[1] T. Donnelly. Underpinnings of the Bush Doctrine. National Security Outlooks/American Enterprise Institute for Public Policy Research, February 2003

Müharibələrin *sosial-siyasi məzmununa* görə təsnifləşdirilməsi cəhdləri də mövcuddur. Sosial-siyasi aspekti əsas olaraq götürdükdə müharibənin aşağıdakı növləri qruplaşdırılır:

– Ədalətli (proqressiv, qanuni) müharibələr: vətəni müdafiə uğrunda, milli azadlıq uğrunda, totalitar rejimlə aparılan müharibələr.

– Ədalətsiz (reqressiv, qanunsuz) müharibələr: işğalçı, müstəmləkə uğrunda müharibələr, sosial təbəqələrin və qrupların əzilməsinə yönələn müharibələr.

Ədalətli müharibə isə yalnız öz ərazisində düşmənə müqavimət göstərildiyi müdafiə edildiyi müharibədir. Onu da qeyd etmək lazımdır ki, İraq ABŞ-a hücum etməmişdi bununla belə həmin müharibəni amerikalılar ədalətli hesab edirlər.

Müharibə siyasi birliklər arasında, yaxud birtərəfli qaydada bir siyasi birlik tərəfindən digərinə qarşı münasibətdə meydana çıxan zorakı fəaliyyətdir. Bu təyinatın prinsipial tərəfi ondan ibarətdir ki, o müharibənin həm dövlət daxilində həm də ondan kənarda baş verə biləcəyini inkar etmir. Bu gün belə açıqlama olduqca vacibdir.

Hesab edilir ki, müharibələrin ədalətli və ədalətsiz olması haqqında fikir söyləmək üçün aşağıdakı meyarlar nəzərə alınmalıdır:

– Müharibəyə yalnız qanuni hakimiyyət başlaya bilər; Müharibəyə başlayarkən yalnız ədalətli məramlarla çıxış etmək lazımdır;Yalnız uğur əldə etmək üçün real şans olduqda hərbi əməliyyatlara başlamaq məqsədəuyğun hesab olunur;Müharibəyə başlamaq variantı ən axırıncı və zəruri halda seçilməlidir; Mülki əhalinin toxunulmazlığı maksimum səviyyədə qorunmalıdır; Zorakılığın miqyasına sərhəd qoyulmalıdır.

Ədalətli müharibə və sülh problemi müharibəyə dair müzakirələrdə yuxarıda qeyd edildiyi kimi qızğın mübahisələrə səbəb olur. Bəzən nə müharibə, nə də sülh vəziyyətləri də mövcud olur. Bu halda da həmin mövzu yenidən gündəmə gəlir. Hələ XV əsrdə Erazm Rotterdamlı "Sülh şikayəti", XVIII əsrdə İmmanuil Kant "Əbədi sülhə doğru" əsərini yazıb.

"Müharibə və sülh probleminin konturları XX əsrin ortalarına qədər əsasən ağ və qara rəngdə görünürdü. Müharibə bir qayda olaraq ərazi işğalı ilə bağlı idi. Sülh isə münasibətlərin müharibə vəziyyətinədək gərginləşdirilmədən qurulması idi. Müasir dövrdə sülh heç də tam qarşılıqlı anlaşma və maraqların uyğunluğu demək deyil. Başqa baxımdan yanaşdıqda, bu, sülhdən daha çox konflikt vəziyyətidir; lakin hərbi müdaxilə və müharibə səviyyəsinə çatmamış

bir konflikt."[1]

Hər il 21 sentyabr tarixi bütün dünya ölkələrində "Sülh günü" kimi qeyd olunur. Beynəlxalq Sülh Günü 1982-ci ildən başlayaraq qeyd edilir.

2007-ci ildən etibarən dünyada "ən sülhsevər xalq"ları müəyyən etmək üçün qlobal reytinqləri də keçirilir. Azərbaycan haqsız münaqişəyə cəlb edilən, ərazisində müharibə gedən dövlət kimi burada təbii olaraq ilk yerlərdə deyil.2011-ci ilin statistikasına görə bu reytinqdə sülh vəziyyətinin ən çox təmin edildiyi ölkə kimi İslandiya 1-ci yerdə durur, ən az sülh şəraiti olan ölkə isə Somalidir. Dünyada ən uzun müddətli (1814-cü ildən bəri) fasiləsiz sülh şəraitində yaşayan ölkə İsveçrədir. Bu onu göstərir ki, sülh və inkişaf arasında sıx əlaqə mövcuddur.

Barak Obama Nobel sülh mükafatı alarkən "Ədalətli müharibə" nədir sualını cavablandırmışdır.Onun fikrinə görə, öz dövlətini qorumaq və müdafiə etmək" ("to protect and defend my nation") deməkdir. Deməli, ədalətli müharibə sənin öz torpaqlarında müdafiə olunduğun , təcavüzə qarşı durduğun müharibədir.

Bu baxımdan, Azərbaycan bu gün atəşkəs rejimindədir, lakin ədalətli sülh yoxdur. Azərbaycan cəmiyyətinin gündəmində sülhdən çox hər gün müharibə xronikası, mövzusu daha aktual yer tutur. Bu yerdə: "Sülh istəyirsənsə, müharibəyə hazır ol!" şüarı öz təsdiqini tapır.

Bütövlükdə, müharibə və sülh problemi, münaqişələrə son qoyulması "ədalətli müharibə" anlayışı ilə sıx bağlıdır. Məşhur deyimə görə: "Sülh müharibənin olmaması demək deyil, sülh ədalətin olması deməkdir".

Tədqiqat işinin sonuncu- dördüncü fəsli **"Azərbaycanda qlobal inteqrasiya və hərbi təhlükəsizliyin konseptual problemləri"** adlanır. Fəslin **"XX əsrdə Azərbaycanda ordu quruculuğunun sosial-fəlsəfi təhlilinə dair"** adlanan birinci fəslində qeyd edilir ki, xalqın ictimai-siyasi həyatında müxtəlif qurumların yeri və rolu onların yaranma zərurəti ilə və ictimai-siyasi şəraiti ilə şərtlənir. Ona görə də qurumların yaranmasının hansı zərurilikdən irəli gəlməsini bilmədən onların cəmiyyətdə və dövlətin siyasi sistemində yerini və rolunu düzgün təyin etmək mümkün deyil. Bu baxımdan Azərbaycan Ordusunun dövlətin siyasi sistemində yerini və rolunu müəyyənləşdirmək üçün onun yaranmasının obyektiv və subyektiv səbəblərinin açıqlanması çox önəmlidir.[2]

---

[1] S.Xəlilov.Qloballaşma və sülh mədəniyyəti// www.felsefedunyasi.org/f iles/51_ fy710f n1rj.doc

[2] Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2010

Azərbaycan xalqının əldə etdiyi mühüm tarixi nailiyyətlərindən biri XX əsrin əvvəllərində demokratik respublikanın qurulması, həmin əsrin sonlarında isə, öz dövlət müstəqilliyini bərpa etməsidir.

Azərbaycan Milli Ordusunun yaradılması hələ ötən əsrin əvvəllərində əldə olunan ilk müstəqillik dönəminə təsadüf edir. O dövrün çar Rusiyasında tarixən ən döyüşkən xalqlardan sayılan döyüşlərdən kənarlaşdırmaq, yalnız işçi qüvvəsi və istismar olunan xalq təfəkkürü formalaşdırmağa cəhd göstərilirdi. 1918-ci ildə Cənubi Qafqazda azərbaycanlılara qarşı erməni təcavüzünün güclənməsi yeni yaranmış milli dövləti - Azərbaycan Xalq Cümhuriyyətini təhlükə qarşısında qoymuşdu. Cəmi 23 ay ömrü olan Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə müstəqil ordumuzun da varlığına son qoyuldu. 1918-ci ildə müstəqillik əldə edən Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya tərəfindən işğalı və Sovet İttifaqına ilhaqı ordu quruculuğu prosesini yarıda qoydu.

II dünya müharibəsindən sonrakı dövrdə də azərbaycanlılara qarşı çar Rusiyasındakı münasibət davam etdirildi. Azərbaycan oğulları əksər hallarda sovet ordusunda ikinci dərəcəli - qeyri-peşəkar işlərdə işlədilirdilər. Eyni zamanda hər birimizə məlumdur ki, bu proses ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinə qədər davam etmişdir.1967-ci ildə Azərbaycan təhlükəsizlik orqanlarına rəhbər təyin olunan ulu öndər Heydər Əliyev ölkənin ordu potensialını qaldırmağın nə qədər vacib olduğunu üzaqgörəncəsinə duyurdu. Bununla belə, sovet ideoloji-siyasi quruluşu şəraitində bu addımların atılmasına, ölkə hüdudlarında hərbi məktəblərin açılmasına və azərbaycanlıların peşəkar səviyyədə ordu sıralarına qatılmasına imkan verilmirdi.

1969-cu ildə Azərbaycanın rəhbəri seçilən ulu öndər Heydər Əliyev belə mürəkkəb bir şəraitdə nə qədər çətin də olsa, hərbi potensialın yaradılması və inkişaf etdirilməsi bu prosesinin əsasını qoydu. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbər seçilməsi milli hərbi kadr hazırlığı sahəsində vəziyyəti köklü surətdə yaxşılığa doğru dəyişməyə başladı. Ulu öndərin o zaman uzaqgörənliklə həyata keçirdiyi tədbir - Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin yaradılması ölkəmizin hərbi təhsil tarixində yeni bir səhifə açdı.

XX əsrin 80-cı illərinin sonlarında Sovetlər ölkəsinin daxilindəki ziddiyyətlər özünün son həddinə çatmışdı. "M.Qorbaçovun ölkəni böhrandan çıxarmaq üçün irəli sürdüyü "ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi" layihəsi və başqalarının irəli sürdüyü "500 gün" proqramı elə ilkin çağlarda iflasa uğradı. Hər şeydən əvvəl islahatlar konsepsiyasının

nəzəri əsasları dövrün, şəraitin tələbləri ilə uzlaşdırılmamışdı. Ölkənin yeni rəhbərliyi cəmiyyətin yeniləşdirilməsi sahəsində köhnə bazis üzərində, sosialist istehsal münasibətlərini təkmilləşdirməyə çalışaraq başlamış olan islahatları zəruri obyektiv bazadan məhrum etmişdi.[1]

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı məhz sovet illərində aparılan quruculuq siyasətinin davam etdirilməsinə şərait yaratdı

Möhkəm nizam-intizama malik ordunun yaradılması, Silahlı Qüvvələrdə vahid komandanlığın təmin edilməsi sahəsində görülmüş məqsədyönlü tədbirlər nəticəsində 1994-cü ilin may ayında Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. 1993-cü ilin iyun ayınadək ordudan fərarilik edən 47 mindən çox hərbi qulluqçu Ümummilli liderin bir çağırışı ilə Milli Ordunun sıralarına qayıtdı. Azərbaycan Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi bu gündə də Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Azərbaycan ordusu hər an düşmən işğalında olan ərazilərimizi azad etmək qüdrətindədir. Status-kvonu Azərbaycan xeyrinə dəyişən aprel döyüşləri bunu bir daha sübut etdi.

Sonuncu fəslin "**Milli ordu və hərbi quruculuq sahəsində Ümummilli lider Heydər Əliyevin fəaliyyəti**" adlanan ikinci yarımfəslində qeyd edilir ki, Şimali Azərbaycanın Çar Rusiyası tərkibində olduğu 90 il (1828-1917) ərzində Rusiya çarlığı xalqımızı hərbi xidmətdən məhrum etmiş, müsəlman-azərbaycanlılar orduda xidmət etmək əvəzinə məcburi vergilər ödəmişlər. Yalnız xalqın yüksək zadəgan və ziyalı zümrəsi içərisində ayrı-ayrı şəxslər öz övladlarını Rusiyanın hərbi məktəblərinə göndərə bilmişlər və beləliklə, o dövrdə müəyyən miqdarda azərbaycanlı zabit heyəti yaradılmış və onlar yüksək sərkərdəlik nümunələri göstərmişlər.

Ulu öndər Heydər Əliyev Azərbaycan Silahlı Qüvvələrinin tarixini üç əsas mərhələyə ayırırdı: I. Xalq Cümhuriyyətinin və onun Silahlı Qüvvələrinin yaranması və təşəkkülü dövrüdür. Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi 1918-ci ildə yenicə yaranmış Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Belə ki, yeni yaranmış Xalq Cümhuriyyəti 1918-ci il 26 iyun tarixində Milli Ordu, Silahlı Qüvvələrin yaranması haqqında qərar qəbul etdi. Hal-hazırda fəaliyyətdə olan Silahlı Qüvvələrimiz üçün bu tarixi bir örnək olaraq qalır. II. Silahlı Qüvvələrimizin tarixinin ikinci mərhələsi Sovet İttifaqının tərkibində

[1] Кара-Мурза С.Г. Крах СССР. М., ООО «Издательство Алгоритм», 2013.- 248 с.

olduğumuz mərhələdir. Silahlı Qüvvələrimizin tarixinin ikinci mərhələsində, SSRİ tərkibində olduğumuz dövrlərdə olan tariximizlə bağlı cənab Heydər Əliyev qeyd etmişdir: "Bunlar hamısı bir-birinə silsilə ilə bağlı tariximizdir və biz bu tariximizə həmişə böyük hörmətlə yanaşmalı, onu qiymətləndirməliyik".[1]

Heydər Əliyev çalışırdı ki, Azərbaycan zabitləri Sovetlər İttifaqı ordusunun tərkibində özlərinə layiqli yer tutsunlar, gələcəkdə Respublikamızın mənafeyini müdafiə etsinlər. "Mən istəyirdim zabitlər korpusumuz olsun, çünki bu Azərbaycanın gələcəyi üçün lazım idi. O, vaxt bunu dərk edə bilməyən adamlar da, buna adicə bir hadisə, tədbir kimi baxırdılar, indi yəqin artıq bilirlər ki, bu addımı atarkən nə qədər böyük uzaqgörənlik olmuşdur". Bir əcnəbi jurnalist yazır ki, 70-ci illərdə Heydər Əliyevin belə bir məktəb yaratmaq təşəbbüsünü irəli atması gələcəkdə Müstəqil Azərbaycan dövlətinin yaradılmasına bir işarə idi.

Heydər Əliyevin 1993-cü ildə təkrar hakimiyyətə gəlməsi və ilk fəaliyyətin, ordu quruculuğuna yönəlməsi -döyüş bölgələrinə səfərləri; döyüşən hərbi hissələrdə görüşləri; Əsgərlər qarşısında çıxışları xalqımıza Azərbaycan Ordusunun yaradılacağına ümid yaratdı. Heydər Əliyevin təşəbbüsü və imzaladığı sərəncamı ilə 1998-ci ildən 26 iyun Silahlı Qüvvələr günü kimi qeyd olunmağa başlanmışdır.[2]

Azərbaycan Respublikası müstəqillik dövründə qısa müddətdə hərbi-texniki əməkdaşlıq sahəsində böyük uğurlar qazanıb. Hazırda ölkəmiz dünyanın 34 ölkəsinin hərbi sənaye kompleksi ilə və digər aidiyyəti qurumları ilə uğurlu əməkdaşlıq əlaqələri yaratmağa nail olmuşdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ölkə həyatının bütün istiqamətlərində, o cümlədən ordu quruculuğu və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində son illərdə mühüm nailiyyətlər əldə olunub.

Sonuncu fəslin **"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və torpaqların işğalı müasir müharibə kontekstində"** adlanan üçüncü yarımfəslində qeyd edilir ki, tarixən Azərbaycanın əzəli torpaqlarına iddialı olan Ermənistanın, Dağlıq Qarabağın (Azərbaycanın qədim Çuxur-Sədd diyarı) Ermənistana qatılması üçün apardığı güclü təbliğat kompaniyasına o zamanı ölkə rəhbərliyi barmaqarası baxır və onun qarşısının alınması üçün

[1] Mirzəzadə A. Güclü və modern Azərbaycan ordusu Heydər Əliyev siyasətinin nəticəsidir. "Azərbaycan".-2011.-11 aprel.-N 76.-S.2.
[2] Rüstəmov İ. Heydər Əliyev - Azərbaycan ordusunun qurucusudur. "Respublika".-2009.-12 dekabr.-N 270.-S.7.

əlində olan səlahiyyətlərdən və müxtəlif imkanlardan istifadə etmirdi. Öz ərazilərini başqa torpaqlar hesabına genişləndirmək planlarından heç vaxt əl çəkməyən erməni millətçiləri isə ölkədə yaranan xaos vəziyyətindən, dövlət rəhbərlərinə göstərdikləri təzyiqdən istifadə edərək öz niyyətlərini həyata keçirmək üçün açıq-açığına fəaliyyətə başlamışdılar. Azərbaycanda və Ermənistanda yaşayan Azərbaycan türklərinə qarşı formalaşdırılan düşmənçilik ideologiyasının mənəvi və fiziki terrorun qabağının alınması üçün kəsərli bir tədbir görülmürdü.

Artıq 1986-cı ildə Dağlıq Qarabağ ərazisində vilayətin Azərbaycandan qoparılıb Ermənistana verilməsi istiqamətində "Krunk", "Daşnaksutyun", "Qarabağ" komitəsi və b. təşkilatlarda güclü iş aparılırdı. Ermənistanda bu istiqamətdə aparılan işlərə L.Ter-Petrosyanın rəhbərlik etdiyi "Qarabağ" komitəsi başçılıq edirdi.[1]

1988-ci ilin fevralından Azərbaycana qarşı elan edilməmiş xəbərdarlıqsız müharibə başlandı. 1989-cu ilin avqust ayının ikinci yarısında 17 yaşından 50 yaşınadək olan ermənilər "Milli müdafiə dəstələri" adlandırılan belə terrorçu qruplara yazılırdılar. Bu təcavüzkar terrorçu qrupların və silahlı dəstələrin fəaliyyəti nəticəsində vilayətdə vəziyyət xeyli kəskinləşdi.

Bütün bunlara baxmayaraq SSRİ rəhbərliyi 1989-cu ilin ilk günlərində DQMV-də vəziyyətin sabitləşməsi əvəzinə çox böyük mənfi hərbi, siyasi nəticələr verən addım atdı. SSRİ Ali Soveti Rəyasət Heyətinin yanvar ayının 12-də Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında qərar qəbul etdi. Əslində isə mərkəzin və Azərbaycan hökumətinin bu addımı Dağlıq Qarabağın Azərbaycan respublikasından daha da uzaqlaşdırılmasına xidmət edirdi. Belə ki, bu fərmanın qüvvəyə minməsindən heç bir həftə keçməmiş, yəni yanvarın 28-də, A.Volski Yerevana səfər edib Ermənistanın rəhbərləri ilə görüşdü. Elə həmin günlərdən də Dağlıq Qarabağ müəssisələrinin Azərbaycanın tabeliyindən çıxarılıb Ermənistanın tabeçiliyinə verilməsinə başlandı.[2]

1989-cu ilin sentyabrın 15-də Azərbaycan Respublikası Ali Soveti SSRİ Ali Soveti Rəyasət heyəti qarşısında XİK-in ləğv edilməsi barədə vəsatət qaldırmaq haqqında qərar qəbul etdi. Həmin sessiyada demokratik hərəkatın fəallarının təklifi və inadı nəticəsində, həm də "Azərbaycan SSR suverenliyi haqqında" konstitusiya qanun layihəsinin ümumxalq müzakirəsinə verilməsi barəsində qərar qəbul edildi.

---

[1] Мусаев Т., Армяно-азербайджанский конфликт: попытка односторонней сецессии, законодательство и распад СССР// http://anarazimov.com/content/view/32/2/

[2] Qarabağ müharibəsi necə başlandı. Bakı, QAT (Qarabağ Azadlıq Təşkilatı ). 2009

1990-cı il yanvarın 12-də erməni silahlı dəstələri bir neçə vertolyotla Azərbaycanın Xanlar rayonunun Quşçu kəndi yaxınlığında yerə enərkən dinc əhalini atəşə tutmuşdular. Yanvarın 18-də isə Naxçıvanın İliç rayonunun Kərki kəndi erməni çoxsaylı silahlı qüvvələri tərəfindən işğal edildi.[1]

Belə bir şəraitdə respublika rəhbərliyi gözlənilmədən milli ordu dəstələrinin yaradılması ideyasını irəli sürdü, əli silah tutan cavanları ordu dəstələrinə yazılmağa çağırdı.Beləliklə də regionda qeyri-sabitliyin yaranmasının günahkar olan tərəf yox, Azərbaycan təcavüzə məruz qaldı.

Təsadüfi deyil ki, 1990-cı ilin yalnız birinci yarısında erməni silahlı dəstələri Azərbaycan ərazisində 300-dən çox fitnəkarlıq və terror aktları törətmiş və bunun nəticəsində 34 adam qətlə yetirilmiş, 64 adam yaralanmışdı. İttifaq orqanlarının gözü qarşısında olan qanunsuz silahlı dəstələr Ermənistanda dövlət himayəsi altına alınmışdı. Ermənistan SSR Ali Soveti yanında 30 may 1990-cı il tarixdə yaradılan Müdafiə Şurası da Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəldilmiş silahlı mübarizəyə rəhbərlik etmək üçün nəzərdə tutulmuşdu. Artiq bu vaxt Ermənistanda artıq qanunsuz formalaşdırılmış altı böyük silahlı qruplaşma var idi. Həmin dəstələri silahlandırmaq üçün erməni millətçiləri müxtəlif mənbələrdən istifadə edirdilər. [2]

1991-ci ilin avqust ayının 30-da ittifaqın bir neçə respublikası öz müstəqilliyini elan etdikdən sonra Azərbaycan Respublikası Ali Sovetində Milli özünümüdafiə qüvvələrinin təşkili barədə qərar qəbul edildi. MDB bayrağı altında vahid qoşunların saxlanılmasına da müvəffəq olmadıqdan sonra ümumqoşun təyinatlı hissələrin respublikalara verilməsi işində bir sıra təxribatlara əl atıldı.

Belə bir dövrdə, ordu quruculuğu ilə bağlı vahid konsepsiyanı hazırlayıb həyata keçirməkdənsə, o zamankı rəhbərlik bir tərəfdən ordunun rəhbərliyinə səriştəsiz, adamların gəlməsinə imkan yaradır, o biri tərəfdən ordu ilə bərabər qeyri qanuni hərbi strukturların sayının artırılmasını təşviq edirdi. Belə qüvvələrin silahlandırılması üçün respublika rəhbərliyinin tələbi ilə Müdafiə Nazirliyindən və Daxili İşlər Nazirliyindən xeyli sayda silah ayırmış və həmin qüvvələr Gəncə hadisələrinə də cəlb edilmişdi. Yəni respublika rəhbərləri birbaşa tabe olan dövlət silahlı strukturlarını gücləndirməkdən və beləliklə, respublikanın ərazi bütövlüyünü qorumaqdansa, əllərində olan hakimiyyətin

---

[1] Abdullayev Ə. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq: Monoqrafiya /Elmi red.: F.e.d., prof. M.F.Cəlilov.- B.: İqtisad Universiteti, 2004.- 214 s.

[2] Əliyev H. Dağlıq Qarabağ həqiqətləri /Elmi red.: tarix e.d., prof., İ.X.Zeynalov.- B.: Renessans, 2005.- 139 s.

saxlanılması üçün daha çox onlara sadiq qüvvələri "qayğı" altına götürmüşlər. Belə siyasət təcrübəsiz hakimiyyətin özünün zəifləməsinə şərait yaradırdı.[1] Müharibədə iştirak edən qüvvələrə vahid komandanlığın təmin edilməsi üçün 1992-ci il iyulun 27-də Ali Baş Komandan tərəfindən xüsusi direktiv imzalansa da prinsipial nəzarətin olmaması üzündən o da kağız üzərində qaldı. Bunların nəticəsi olaraq, "ordu hissələri ona həvalə olunan vəzifələri- Azərbaycan dövlətinin mənafeyini, ərazi bütövlüyünü və sərhədlərin toxunulmazlığını qorumaq vəzifələrini yerinə yetirə bilmirdi. Elə hissələr də var idi ki, hətta başda komandir olmaqla döyüş tapşırıqlarını yerinə yetirməkdən imtina edirdilər".[2] "Hərbi hissələrdə mənəvi-ideoloji tərbiyə ayrı-ayrı vətənpərvərlərin təşəbbüskarlığına arxalanırdı."[3]

Güclü Azərbaycan ordusunun banisi Heydər Əliyevin 1994-cü il oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda ordu haqqında demişdir: "Ordu bizim üçün ən müqəddəs, ən gərəkli dövlət strukturudur. Ordu hər bir vətəndaşın əmin-amanlığı üçün yaranır. Ordu Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yaranır. Ona görə də hər bir vətəndaş ordu sıralarında xidmət etməyi özünə şərəf bilməlidir."

Sonuncu fəslin üçüncü yarımfəsli **"Beynəlxalq hərbi təşkilatlarla əməkdaşlıq və inteqrasiyanın konseptual əsasları"** adlanır. Burada qeyd edilir ki, beynəlxalq, hökümətlərarası təşkilatlar dedikdə, müəyyən sayda müstəqil dövlətlər arasında təsisedici müqavilə əsasında ictimai münasibətlərin istənilən mövzusunda qarşılıqlı maraq təşkil edən əməkdaşlıq münasibətləri nəzərdə tutulur. Dövlətləri bir araya gətirən, yaxınlaşdıran, sıx əlaqələr yaratmağa yönəldən mövzuların müxtəlifliyi nə qədər geniş olursa-olsun hərbi sahə dövlətlər üçün hər zaman prioritet təşkil edir. Dövlətin mövcudluğu, inkişafı, gələcəyi onun öz təhlükəsizliyini təmin etmədikdə təhlükələrə uğrayır.

Müasir zamanda yalnız fövqəl, nüvə silahına malik olan dövlətlər bu əsasverici təhlükəsizlik problemini təkbaşına həll edə bilir. Əksər dövlətlər isə öz təhlükəsizliyini başqa dövlətlərin təhlükəsizliyi ilə sıx bağlayır, ümumi təhlükəsizliklə sıx əlaqədə görür. Kollektiv təhlükəsizlik ideyası dövlətin hərbi xərclərini gərginləşdirmir və qarşılıqlı hərbi əlaqələrin uzun müddətli təminatı müasir tələbatlara cavab verməsi baxımından cəlbedicidir. Bu səbəbdən

---

[1] Acı həqiqətlər: (Qarabağ hadisələrinə dair məqalələr). B., 1991

[2] Abdullayev Ə. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq: Monoqrafiya /Elmi red.: F.e.d., prof. M.F.Cəlilov.- B.: İqtisad Universiteti, 2004.- 214 s.

[3] Köçərli T. Qarabağ /Red.: O.S.Məmmədov; AMEA-nın İnsan Hüquqları İnstitutu.- B.: Elm, 2002.- 465 s.

dövlətlər beynəlxalq, qlobal və regional təhlükəsizlik sistemlərinə inteqrasiya edib üzv olmağa can atırlar.[1]

Dünya dövlətləri tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinə, ATƏT prinsiplərinə əsaslanan Azərbaycan Respublikası müasir dövrdə üzləşdiyi Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün nüfuzlu beynəlxalq təşkilatlardan biri olan ATƏT ilə fəal və genişmiqyaslı əməkdaşlıq edir. Ölkəmizin NATO ilə əməkdaşlığının dərinləşməsi də zərurətdən irəli gəlirdi.[2]

Bu gün Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiya olunmasında, onun təhlükəsizlik problemlərinin həll edilməsi ilə bağlı beynəlxalq ictimai rəyin formalaşmasında, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsində və s. ATƏT və NATO kimi nüfuzlu beynəlxalq təşkilatların böyük rolu vardır.

Həbi siyasi təşkilat kimi isə NATO bütün dünyada, o cümlədən postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasında, demokratik islahatlar keçirilməsində zəruri kömək göstərməyə çalışır.[3]

1994-cü ildə Brüssel sammitində NATO-ya üzvü olan ölkələrin liderləri məhz bu müraciət və ondan irəli gələn taktiki məsələlər üzərində "Sülh naminə tərəfdaşlıq" proqramı adlanan yeni bir sənəd qəbul edildi".[4]

"Ölkəmiz "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmaqla həm də NATO-nun müxtəlif struktur və institutları vasitəsilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, həm də bloka daxil olan 28 ölkə ilə ayrı-ayrılıqda və birgə sülhməramlı və humanitar aksiyalarda iştirak etmək imkanı qazanır.[5]

Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması həm də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi deməkdir. "Sülh naminə tərəfdaşlıq" proqramı dövlətimiz üçün təhlükə yarada bilən qüvvələrin neytrallaşmasında və ölkəmizin xarici təzyiqlərdən qorunmasında əhəmiyyətli

---

[1] Офлаз Б. Роль международных организаций в решении проблемы Нагорного Карабаха // Известия РГПУ им. А. И. Герцена. 2013. № 160. С.187-195

[2] Əzimli A. Azərbaycan-NATO münasibətləri: (1992-2000).- B.: Adiloğlu, 2001.- 226 s.

[3] Sülh və təhlükəsizlik naminə: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri, 22- 27 aprel 1999-cu il /Azərbaycan Respublikası Prezidentinin katibliyi.- B., 2000.- 231 s.

[4] Rzayev, E. NATO-nun strateji xətti //Yeni Azərbaycan.- 1996.- 18 may.

[5] Miraləm E. Azərbaycan- NATO əməkdaşlığı: ümumi maraqlar, real imkanlar və gələcək perspektivlər fonunda //Azəbaycan.- 2004.- 4 iyul.-S.2.

rol oynaya bilər. Üç Qafqaz respublikası içərisində heç bir xarici dövlətin bazası və hərbi qüvvələri olmayan yeganə dövlət məhz Azərbaycandır. Bu əsaslı və mühüm faktor da NATO-nun respublikamızla xüsusi əməkdaşlığa sövq edən digər əsas amil hesab edilməlidir. "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində bütün dövlətlərarası münaqişələr dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır.[1]

Beləliklə, Azərbaycan Cənubi Qafqazda ən güclü silahlı qüvvələr formalaşdırmaqla regionda öz mövqelərini möhkəmləndirib. Azərbaycanın güclü silahlı qüvvələrə malik olması ölkənin ərazi bütövlüyü və suverenliyinin dinc yolla bərpası, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında nizamlanması üçün də mühüm amildir.

Dissertasiyanın **"Nəticə"** hissəsində müharibə fenomeni, onun yaşadığımız postmodern dövrdə forma və mahiyyət baxımından köklü dəyişikliyə məruz qalması, müasir müharibənin bitkin nəzəriyyəsinin və elmi-fəlsəfi mənzərəsinin yaradılmasına dair müəllifin baxışları qeyd edilir, tədqiqata yekun vurulur, başlıca qənaətlər ümumiləşdirilir.

Qeyd edilir ki, tarixən mövcud olan klassik-ənənəvi və son zamanlarda elmi dövriyyəyə gələn ən yeni müharibənin forma və növləri, onların xüsusiyyətləri və prinsiplərini, yeni hərbi-elmi kateqoriyaların təhlili yaşanılan dövr aspektində çox vacibdir. Həmçinin XXI əsrin astanasında elmi-texniki inqilabın təsiri nəticəsində yeni hərbi-texniki inqilab baş verməkdədir. İnformasiya müharibələri bu yeni hərbi-texniki, informasiya inqilabının təzahürüdür.

Tədqiqatda ən müasir, yaxud postmodern müharibənin xarakteri səciyyələndirilir və qeyd edilir ki, o, əvvəlki dövrdəkindən tamamilə fərqlənir. İlk əvvəl, indiki müharibə fenomeni-bütöv və kompleks bir strategiya təsirini bağışlayır. Bu da özünü hazırda tətbiq edilən "kombinasiya edilmiş müharibə", "kompleks müharibə" termininin ortaya çıxmasında göstərir. "Kombinasiya edilmiş müharibə" dedikdə: "iqtisadi, informasiya, hərbi və s. məzmunlu müharibələrin" məcmusu başa düşülür.

Dissertasiyada müasir dövlətlərarası müharibələrinin əsas meyl və xüsusiyyətlərini sistemləşdirilərək nəticədə aşağıdakı qənaətlər əldə edilir:

– Dövlətlərin hərbi-güc səlahiyyətlərinin "özəlləşdirilməsi", hərbi-sənaye komplekslərinin müharibəni "kommersiyalaşdırılması" meylləri; Müharibələrin transmilliləşməsi. Əsasən beynəlxalq terrorizmin qlobal miqyas

---

[1] Solana, X. Azərbaycan Avropa-Atlantika tərəfdaşlıq şurasının layiqli üzvüdür: NATO-nun baş katibi X. Solananın Azərbaycana səfəri //Azərbaycan.- 1998.- 29 sentyabr.- S.4.

alması ilə şərtlənən bu müharibələrdə dövlətlərin sərhədləri heç bir rola malik deyil və eyni zamanda bu dövlətlərarası müharibə də deyil.( İŞİD timsalında);Yüksək dəqiqliyə malik hərbi texnologiyanın hədəflərin vurulması üçün tətbiqi; Legitim dövlət statusu olmayan subyektlər arasındakı müharibələrdən (guerra-partizan) aşkar istifadə edilməsi; Müharibənin demilitarizasiyası-canlı qüvvə olmadan, dronlarla (pilotsuz təyyarələrlə) aparılması və s. Hərbi-siyasi məqsədlərə nail olmağın daha səmərəli və perspektivli vasitəsi kimi, informasiya üstünlüyü faktorunun əhəmiyyətinin artması;İnformasiya amili ilə yanaşı - siyasi amilin qabarıq nəzərə çarpması da nəzərdən qaçırılmamalıdır. Belə ki, ən yeni hərbi-texniki inqilabın nailiyyətlərinə güvənərək hərbi əməliyyatlarla bağlı əsasən ədalətsiz siyasi qərarların, sanksiyaların verilməsi də yeni nəsil müharibələrə xas olan cəhətlərdəndir. Nəhayət, hərbi əməliyyatlarla bağlı verilən sanksiya-qərarların "ikili standartlar" siyasətinə tabe etdirilməsi hazırda dövlətlərarası müharibələrin ayrılmaz xüsusiyyətinə çevrilmişdir.

Əldə edilən digər qənaətlərdən biri budur ki, istər Dağlıq Qarabağ probleminin, istərsə də bu gün dünyada yaşanan humanitar fəlakətin həll edilməsi, gələcəkdə daha ağır faciələrin yaşanmaması üçün beynəlxalq münasibətlərdə ikili standartların normaya çevrilməsinin qarşısı alınmalıdır.

Dissertasiyanın əsas məzmunu müəllifin tədqiqatın mövzusu üzrə nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

***Kitablar:***

1. Azərbaycan Respublikasının daxili və xarici siyasətinin konseptual əsasları.(K.Piriyev,E.Q.Həşimov,T.B.Allahyarova,Z.N.Nəcəfov.
Dərslik Bakı. Hərbi Nəşriyyat, 2016. 244 səh

2. Silah və Atəş hazırlığı. Atıcı silahların və yaxın məsafəli döyüş vasitələrinin konstruksiyası. (Məmmədov A.X). Dərslik. AAHM mətbəəsi. Bakı 2004 səh

3. Müasir müharibə: mahiyyəti, konsepsiyalari və postmodern perspektivlərinə baxış. Bakı, "Elm" nəşriyyatı. 2016.- 452 s.

4. Müharibə və ekologiya monoqrafiya. AAHM mətbəəsi, 2004. 100 səh

5. Silah və Atəş hazırlığı. Atıcı silahların və yaxın məsafəli döyüş vasitələrinin konstruksiyası. Dərslik AAHM mətbəəsi. Bakı 2004. 640 səh

6. Silah və Atəş hazırlığı. Döyüş maşınlarının silahları. (Məmmədov A.X, Osmanov V.H) dərslik AAHM mətbəəsi. Bakı 2004. 240 səh

7. Hərəkət məkan və zaman kateqoriyalarının tədrisi. Metodiki vəsait. AAHM mətbəəsi. Bakı 2006. 30 səh

8. Fiziki Hazırlıq məşğələlərinin təşkili və keçirilməsi üzrə tədris-metodiki göstərişlər. Dərslik. AAHM mətbəəsi. Bakı 2007. 196 səh

9. Döyüşün mənəvi psixoloji təminatı. (K.Piriyev,E.Q.Həşimov, İ.İsmayılov) Dərslik. Bakı: Hərbi Nəşriyyat, 2017. 250 səh.

***Elmi məqalələr:***

1. Döyüş stresi və onun qarşısının alınması yolları. // “Humanitar elmlərin öyrənilməsinin aktual problemləri” jurnalı. “MÜTƏRCİM” TM nəşriyyat-poliqrafiya mərkəzi N 5, 2007. s.319-327

4. “Milli birlik, onun əhəmiyyəti və dünya azərbaycanlıları arasında yaradılması problemi”. // “Sosial –siyasi problemlər” elmi-nəzəri jurnalının N 5, 2008. s. 99-103

5. İnformasiya müharibəsi. // Elmi axtarışlar jurnalı. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, N 22, 2006. s.297-300

7. İslam və müharibə məfhumu. // “Elmi axtarışlar jurnalı” Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, N 24,2006. s.239-244

8. Beynəlxalq hərbi təşkilatlarla əməkdaşlıq və inteqrasiyanın konseptual əsasları. // “Hərbi bilik” jurnalı, N 3, 2006. s.79-88

9.Heydər Əliyev və Azərbaycan ordu quruculuğu. // “Hərbi bilik” jurnalı, N 4, 2006. s.49-51

10.Sosial fenomen kimi müharibənin səciyyələndirilməsi. // “Hərbi bilik” jurnalı, N 6, 2006. s. 82-87

11. Orta əsr mənbələrində türk dövlət və ordu idarəçiliyinin üstün cəhətləri barədə. // “Hərbi bilik” jurnalı, N 4, 2007. s. 96-99

12. Müharibələrdə psixoloji faktorun döyüş nəticəsinə təsiri. // “Hərbi bilik” jurnalı, N 5, 2007. s.9

14. Müharibə haqqında sosial-fəlsəfi nəzəriyyələr tarixində. // “Hərbi bilik” jurnalı, N 3, 2007. s. 94-107

17. Beynəlxalq terrorizm problemi haqqında. “Elmi Əsərlər” məcmuəsi, N2(9), 2007. s.13-18

18. Atıcı silahlar üçün döyüş sursatları. //“Hərbi bilik” jurnalı, N3, 2011. s.70-90

19. 60 MM-lik minaatanlar üçün minalar. //“Hərbi bilik” jurnalı, N5, 2011. s.77-82

20. Hərb və onun genezisi. //“Hərbi bilik” jurnalı, N5, 2014. s.16-20

21. Etnik münaqişələrin geosiyasi xüsusiyyətlərini öyrənən nəzəriyyələr.//“Elmi əsərlər” məcmuəsi, N2(23), s.14-21

22. Ölkələrin milli təhlükəsizliyi; nəzəri problemlər. // "Hərbi bilik" jurnalı, N6, 2014. s.8-13

23. İnformasiya sivilizasiyası və hərbi-siyasi qarşıdurmalar məkanının transformasiyası: əsas meyllər və perspektivlər. //"Strateji təhlil" jurnalı, N3(10), 2014. s.21-36

24. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi. //"Silahlı Qüvvələrin Hərbi Akademiyasının İ Respublika Elmi-praktik konfransının materialları, 2015. s. 92-95

25. Strategiya anlayışı, növləri və yaradılma modeli. //"Hərbi bilik" jurnalı, N3, 2015. s.61-68

26. Münaqişələrin qeyri-qanuni fəaliyyətlərlə əlaqəsi //"Hərbi bilik" jurnalı, N6, 2015. s.79-87

27. Postmodern mərhələnin müharibələri: nəzəri tətbiqi və perspektivləri. //"Strateji təhlil" jurnalı, N2(13), 2015. s.51-67

27.Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin strateji vektorları. //Milli təhlükəsizlik və hərbi elmlər. N1, vol.2, 2016. s.122-126

28.Hərbi təhlükəsizliyin geosiyasi aspektləri. "Silahlı Qüvvələrin Hərbi Akademiyasının II Respublika Elmi-praktik konfransı, 2016. s.68-73

29.Hərbi siyasət: məqsəd və vəzifələri. //"Hərbi bilik" jurnalı, N4, 2016. s.68-73

30.Hərbi siyasət və hərbi təhlükəsizlik. //Milli təhlükəsizlik və hərbi elmlər.

31.İnformation sivilization and the transformation of the military and political confrontation area: the main trends and prospects məqalə Гілея: науковий висник. Збирник науковых праць.v 2015. – Вип. 102(11). // – К.: «Видавництво «Гілея», с. 205-211

32.Ecology security as a part of state national security of country məqalə «Суспільні науки: історія, сучасний стан та перспективы досліджень»: Матеріали міжнародноі науково-практичоі конференціі (м. Львів, липня 2015 року). - м. Львів: ГО «Львівська фундація суспільних наук», 2015. с.113-115

33. Конфликт и социально-психологические причины его возникновения. // Пріоритетні напрями вирішення актуальних проблем виховання і освіти 24 – 25 липня 2015 р. Харків 2015. с. 122-125

34. Геополитические особенности конфликтов XXI века. // Суспільні науки XXI століття: Матеріали міжнародноі науково-практичоі конференціі (м.Дніпропетровськ, 1 серпня 2015 року). – Дніпропетровськ: НО «Відкрите суспільство», 2015. С. 109-113

**İmpakt faktorlu məqalələr:**

35. The Wars of Postmodern Stage: The Explanation, Application and Perspectives. // War & Society İn Volume 36, 2017. p.106-118

36. The Wars of Postmodern Stage: The Explanation, Application and Perspectives. // Publising History: the Social, Economic and Letarary history of book, newspaper and magazine publishing. 2017 Cambridge. p.192-203

37. The Wars of Postmodern Stage: The Explanation, Application and Perspectives. // Journal of military history. April June. Pp. 76-82. 2018 volume 82.

38. On the wars of postmodern stage: systematic problems of the period in the context of the theoretical explanation and future perspectives. // Xavier University, The Classical Bulletin Journal, USA, 2017

**Бабир Шарги оглы Кулиев**

**Динамика военных факторов в межгосударственных отношениях (социально-философский анализ)**

**РЕЗЮМЕ**

Диссертация посвящена социально и философскому анализу современной войны, ее проявлений в процессах глобализации, сущности военного фактора в межгосударственных отношениях.

Диссертация состоит из введения, пяти глав, тринадцати параграфов, заключения и списка использованной литературы.

Первая глава диссертации называется «Социально-философский взгляд на сущность войны и экскурс в историю теорий». В этой главе исследуется темы: «Генезис войны и философский анализ ее сущности», «Характеристика войны как социального феномена» и «Историческое развитие и взаимная динамика военных факторов».

Автор отмечает, что каждый этап в развитии военной истории имеет свою модель войны и новые особенности межгосударственных отношений. С этой точки зрения, процесс изучения современных войн и конфликтов не укладывается в рамки классических социально-философских теорий. Возникает необходимость поиска новых подходов. Современная война отличается от прошлых войн по динамике военного фактора, по форме новой напряженности в межгосударственных отношениях, а также по таким явлениям, как международный терроризм, миграционная катастрофа и т.д.

Вторая глава диссертации называется «Военные факторы в эпоху глобализации: методологические, теоретические и технологические аспекты». Эта глава состоит из следующих параграфов: «Изменение характера и целей конфликтов и войн на современном этапе, основные тенденции», «Новые традиционные виды и социальные последствия войн», «Информационные войны и технологии. Новые методы вооруженных конфликтов» и «Глобальный и локальный уровни экологических войн». В этой главе автор показывает, что в отличие от войн в классическом понимании, в войнах эпохи глобализации отсутствует традиционные "линии фронта", где войны, противоборствующие стороны стоять лицом к лицу, процессы в военных операциях, в основном, строятся на основе отношений тройки «время-пространство-информация». Фактор скорости, который связан с информацией, является с самой важной особенностью войн в эпоху глобализации. Впервые в отечественной социально-философской литературе анализируются современные

информационные войны, асимметричные войны, «сетевые войны», «гибридные (смешанные, неконвенциональные) войны», экономические и нефтяные войны, водные войны.

Третья глава диссертации называется «Цивилизационные аспекты универсальной, глобальной безопасности». В соответствии с рассматриваемой проблематики, эта глава разделена на следующие параграфы: «Феномен международного терроризма и фактор войны», «Многополярный мировой порядок, современный анализ и вопросы урегулирования войн» и «Философско-нравственные основы перехода от «мышления войны» к культуре мира». Автор выразил свое отношение к социально-философскому анализу терроризма, который является глобальной проблемой XXI века и новой, специфической формой ведения войны, а также его военно-политических и духовных корней. Было отмечено, что современный международный терроризм и динамика военного фактора находятся во взаимодействии.

Последняя, четвертая глава диссертации называется «Глобальная интеграция и концептуальные проблемы военной безопасности в Азербайджане».

В этой главе исследуются следующие темы: «О социально - философском анализе строительство армии в XX веке в Азербайджане», «Деятельность общенационального лидера Гейдара Алиева в сфере национальной армии и военного строительства», «Армяно-азербайджанский нагорно-карабахский конфликт и оккупация земель в контексте современной войны» и «Сотрудничество с международными военными организациями и концептуальные основы интеграции».

В последней главе армяно-азербайджанский нагорно-карабахский конфликт анализируется через призму современной войны.Так же рассматриваются контекст «гибридной войны, асимметричной войны, информационной войны, водной войны» и т.д. История конфликта рассматривается с точки зрения динамики военного фактора и межгосударственных отношений. Следует отметить, что пути урегулирования этой войны, которая угрожает стабильности нашей страны, региона и всего мира, проходят через международное право и справедливое, правильное и объективное отношение международного сообщества.

В заключительной части диссертации приводятся выводы, полученные автором в результате исследования, даются итоги социально-философского анализа и рекомендаций.

**Babir Sharqi Kuliyev**

## Dynamics of military factors in interstate relations (social and philosophical analysis)

### SUMMARY

The dissertation is dedicated to modern warfare, its globalization process and emergence inter-civilizational relations, dynamics of military factors in interstate relations, socio-philosophical analyses of conceptions on essence of military factors.

The dissertation comprises introduction, five chapters of thirteen subchapters, conclusion, and the list of references.

The first chapter of the dissertation is called "socio-philosophical glance on essence of warfare and excursion into the history of the theories". In here, topics such as warfare, its genesis, philosophical analyse of its essence; classification of warfare as a social phenomena; and historical raise and mutual dynamic of military factors.

The author emphasizes that in the history of wars, either period had its specific warfare model and peculiarities of inter-civilizational relations. From this point of view, modern period warfare and conflict process can't be framed with classic theories of socio-philosophical science which enlights them. New approaches are required. Modern warfare also differs due to dynamic of military factors, as well as forms of tensions of interstate relations, hereby global terrorism, disaster of migration, etc.

The second chapter of the dissertation is called as "military factors in the globalization period". The subjects are studied in the second chapter are: conflicts at modern stage and changes happening in the characteristics and purpose of warfare, main direction; new traditional shapes of warfare and social consequences; information warfare and its technologies; new methods of military conflicts and global and local levels of ecological warfare. In here, the author emphasizes that the process in military operations are built on "time-location-information" trio unlike warfare understood in classical meaning, contact of line, non-existence of frontline. The factor of speed is a key feature in relation with information classifying warfare in the period of globalization. For the first time, in local socio-philosophical literature, information warfare, asymmetric warfare, "centric warfare", "hybrid warfare", economic-energy warfare, hydro-warfare are involved in analyses .

The third chapter is called “Civilizational aspects of worldwide, global security”. In this chapter comprises “Global terrorism phenomena and warfare factor”; “Multipolar world order, modern analysis and overhaul of the war”, “Contemporary study of warfares and their settlements” and “Philosophical-morale basics of transition from “battle thinking into peace culture”. The author expressed own point of view on global issues of the XXI century, and analyses of terrorism at socio-philosophical aspects, its political-military, morale roots. Here it is mentioned that, the dynamic of modern global terrorism and military factor are process being in inter-influence.

The final-fourth chapter of the dissertation is called “Global integration in Azerbaijan and conceptual issues of military security”.

In here, topics on “socio-philosophical analyse of army formation in XX century in Azerbaijan”, “ National army and the performance of National leader Haydar Aliyev in military formation”, “Armenia-Azerbaijan Mountainous Karabakh conflict and occupation of the territory in modern warfare context”, and “Cooperation with international military organizations and conceptual basics of integration” are studied.

In the latter chapter, Armenia-Azerbaijan, Mountainous Karabakh conflict is analysed from the point of modern warfare. Also are reviewed the aspects of “hybrid warfare and asymmetric warfare, information warfare, hydro warfare, etc. The history of the conflict is looked through from the point of dynamic of military factor and inter-civilizational relations. Here it is mentioned that, the way leading to the solution of the conflict which is a threat to our country, region as well as for the whole world depends on fairly approach of international law, world community and right view.

İn the “Conclusion” part of the dissertation the author summarised the outcomes, the results of socio-philosophical results and put up the proposal and ideas.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**БАБИР ШАРГИ оглы КУЛИЕВ**

# ДИНАМИКА ВОЕННЫХ ФАКТОРОВ В МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИЯХ (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ)

Специальность: 7207.01 - Социальная философия
7301.01 – Военно-теоретические науки

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философских наук

**БАКУ – 2018**